**“ABB-İnvest İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti**

# Fiziki şəxslərə investisiya xidmətlərinin göstərilməsinə dair
## 19 may 2025-ci il tarixli
## Standart Şərtlər *(fiziki şəxslər üçün)*

**Bakı şəhəri**



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

Fiziki şəxslərə investisiya xidmətlərinin göstərilməsinə dair Standart şərtlər (bundan sonra – Standart Şərtlər adlandırılacaq) əvvəlcədən ifadə edilmiş, dəfələrlə istifadə üçün nəzərdə tutulan şərtlər olmaqla Azərbaycan Respublikasının qanunvericiliyi, öz Nizamnaməsi və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən investisiya fəaliyyətinin həyata keçirilməsi üzrə verilmiş İŞ-05 nömrəli, 18 sentyabr 2020-ci il tarixli lisenziya əsasında fəaliyyət göstərən "ABB-İnvest İnvestisiya Şirkəti" QSC (bundan sonra – İnvestisiya Şirkəti adlandırılacaq) və Müştəri (bundan sonra birlikdə - Tərəflər və ya müvafiq olaraq Tərəf adlandırlacaq) arasında aşağıdakı investisiya xidmətlərinin göstərilməsi üzrə şərtləri tənzimləyir.

- Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
- Fərdi investorların portfelinin idarə edilməsi;
- İnvestisiya məsləhətlərinin verilməsi;
- Marja ticarəti.
- Qiymətli kağızların hesabının idarə edilməsi, o cümlədən qiymətli kağızların və törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi, mərkəzi depozitarın üzvü qismində müştərinin qiymətli kağızlarının saxlanması;
- İnvestorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;
- Əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.

Müştəri, İnvestisiya Şirkətinin rəsmi internet səhifəsində ( https://www.abbinvest.az/az/huquqi_senedler) yerləşdirilmiş bu Standart Şərtlərlə tanış olmaqla və müvafiq Müqaviləni bağlamaqla investisiya xidmətlərindən istifadə edə bilər. Müştəri müvafiq Müqaviləni şəxsi imza, elektron imza və/və ya Şəxsi imzanın başqa analoqundan istifadə etmək yolu ilə imzalamaqla bağlaya (təsdiq edə) bilər. Bu Standart Şərtlərdə nəzərdə tutulan xidmətlər və həmin xidmətlər üzrə müvafiq bəndlər Müştəriyə yalnız müvafiq Müqavilə bağlandıqdan sonra tətbiq edilir. Bu Standart Şərtlər müvafiq


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

Müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunur. Bu Standart Şərtlərdə anlayış verilməyən anlayışlar (məfhumlar) hüquqi aktlarda müəyyən olunmuş mənada qəbul edilir.

## 1. Anlayışlar

1.1 **Müştəri** – İnvestisiya Şirkəti ilə bağlanmış müvafiq Müqaviləyə əsasən İnvestisiya Şirkətinin bu Standart Şərtlər üzrə təqdim etdiyi investisiya xidmət(lər)indən istifadə edən fiziki şəxs.

1.2 **İnvestisiya Şirkəti** – "ABB-İnvest İnvestisiya Şirkəti" QSC

1.3 **Təsisçi Şirkət** – "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

1.4 **Qanunvericilik** – Bu Standart Şərtlərin mahiyyətindən irəli gələrək Azərbaycan Respublikasının hüquqi aktlarına daxil olan bütün normativ hüquqi aktlar və normativ xarakterli hüquqi aktlar.

1.5 **İnvestisiya hesabı (Hesab)** - Müştərinin İnvestisiya Şirkətində olan aktiv və öhdəliklərinin uçotu, habelə müştərinin investisiya əməliyyatlarından irəli gələn qiymətli kağız, törəmə maliyyə aləti və pul üzrə hesablaşmaları üçün istifadə edilən hesabdır. İnvestisiya hesabı müvafiq investisiya xidmətinin istifadəsindən asılı olaraq adi investisiya hesabı, marja hesabı və portfel idarəçiliyi hesabı növündə ola bilər.

1.6 **Müvafiq müqavilə** - İnvestisiya Şirkəti tərəfindən investisiya xidmətlərinin göstərilməsi məqsədi ilə İnvestisiya Şirkəti ilə Müştəri arasında bağlanılan, bu Standart Şərtlərin qəbul edildiyini və ümumi müddəalarla birgə tətbiqini təsdiq edən tərəflərin iradə ifadəsi;

1.7 **Şəxsi imzanın başqa analoqu** – Müqavilələrin, sənədlərin, əlavələrin, razılaşmaların imzalanması üçün istifadə olunan kodlar, parollar, habelə mobil tətbiq, elektron platforma, rabitə və/və ya elektron vasitələrlə sənədlərin və ya digər verilənlərin mübadiləsi və sənədin bir Tərəfdən gəldiyini dürüst müəyyənləşdirməyə, eləcə də imza sahibini eyniləşdirməyə imkan verən digər vasitələr (təkrar istifadə oluna bilən şifrə, birdəfəlik şifrə, SMS, bir düymə sıxmaqla təsdiq, gücləndirilmiş müştəri autentifikasiyası, o cümlədən suallar toplusu, üz tanınması, səs tanınması, barmaq izi və s.). Sənədlərin Müştəri tərəfindən Şəxsi imzanın başqa analoqu vasitəsilə imzalanması qaydası Azərbaycan Respublikasının hüquqi aktları və İnvestisiya Şirkətinin daxili sənədlərinin


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

tələblərinə uyğun olaraq İnvestisiya Şirkəti tərəfindən müəyyən edilir, müvafiq informasiya resursu vasitəsilə Müştərinin nəzərinə çatdırılır, Müştəri sənədləri Şəxsi imzanın başqa analoqu ilə imzaladığı zaman imzalanmanın qaydasına da razılıq vermiş olur;

1.8 **“ABB mobile”** - investisiya xidmətlərinin həyata keçirilməsi məqsədi ilə İnvestisiya Şirkəti ilə Müştəri arasında elektron məlumat mübadiləsini və elektron əməliyyatların aparılmasını təmin edən vasitə;

1.9 **SMS/E-mail məlumatlandırma** – İnvestisiya Şirkətinin Müştərinin mobil telefona/elektron poçt ünvanına SMS/investisiya hesabından çıxarış göndərməklə investisiya əməliyyat(lar) barədə Müştərini məlumatlandırma (hesabat vermə) xidməti;

1.10 **Şəxsi kabinet** – Müştərinin şəxsi məlumatları, investisiya xidmətlərinin həyata keçirilməsi ilə bağlı verdiyi sifariş və tapşırıqlar, aktiv və öhdəlikləri, eləcədə digər aidiyyəti məlumatlar toplusunu əks etdirən, habelə Müştəri və İnvestisiya Şirkəti arasında məlumat mübadiləsini təmin edən sistem;

1.11 **Xidmət haqqı** – İnvestisiya Şirkəti vasitəsilə investisiya xidmətləri üzrə əməliyyatın aparıldığı günə qüvvədə olan (İnvestisiya Şirkətinin rəsmi internet səhifəsində ( https://www.abbinvest.az/az/huquqi_senedler) yerləşdirilmişdir) tarif dərəcələri.

1.12 **Sifarişin icra olunması ilə bağlı xərclər -** Sifarişlərin icra olunması yeri üzrə ödənişlər, klirinq haqları, sifarişin icrasına cəlb edilmiş üçüncü tərəfə ödənişlər.

1.13 **Sifarişin icra olunması yeri üzrə ödənişlər –** Sifarişin predmetini təşkil edən qiymətli kağız və ya törəmə maliyyə alətinin buraxılış şərtləri üzrə ödənişlər, qiymətli kağız və ya törəmə maliyyə alətinin emissiya edildiyi və ya ticarət oldunduğu ölkənin yurisdiksiyası üzrə ödənişlər və qiymətli kağız və törəmə maliyyə aləti ilə bağlı bunlarla məhdudlaşmayan icrası yeri üzrə digər ödənişlər;

1.14 **Marja hesabı –** İnvestisiya Şirkəti tərəfindən fərq müqavilələri ilə marja ticarətinin və qiymətli kağızlarla marja ticarətinin aparılması məqsədi ilə müştərilərə açılmış hesabdır.

1.15 **İnvestisiya Şirkətinin internet səhifəsi (sayt) –** www.abbinvest.az internet səhifəsi.

1.16 **Korporativ hərəkətlər (corporate actions) –** Qiymətli kağızın sayının və (ya) nominal dəyərinin dəyişdirilməsi, birləşməsi, ləğv edilməsi, qiymətli kağız üzrə faiz,



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

dividend və qalıq borcun ödənilməsi və sair bu cür emitent tərəfindən təşəbbüs edilən, müvafiq qiymətli kağızın hər bir sahibinə şamil edilən hərəkətlərdir.

1.17 **ƏL/TMM Qanunu** - "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair" Azərbaycan Respublikasının Qanunu.

1.18 **MUT Qaydaları** - ƏL/TMM Qanununa müvafiq olaraq Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş qüvvədə olan "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar".

1.19 **Abunə yazılışı –** kütləvi təklif edilən investisiya qiymətli kağızlarının yerləşdirilməsindən əvvəl investorlar tərəfindən həmin qiymətli kağızların alışı barədə sifarişlərin təqdim edilməsi prosesi;

1.20 **Kontragent-** xidmət(lər)in göstərilməsinin təmin edilməsi üzrə İnvestisiya Şirkətinin tərəfdaşı (kontragent bu Standart Şərtlər daxilində eyni zamanda üçüncü şəxs qismində də çıxış edə bilər);

1.21 **Portfelin idarə edilməsi** - fərdi investorların verdiyi istiqamətlər üzrə bir və ya bir neçə qiymətli kağızdan və ya törəmə maliyyə alətlərindən, habelə pul vəsaitindən ibarət portfeli investisiya şirkətinin idarə etməsi üzrə əsas investisiya xidmətidir

1.22 **Ticarət hesabı –** Fərq müqavilələri ilə marja ticarəti üzrə Müştərinin elektron ticarət platformasında olan hesabıdır;

1.23 **Ticarət platforması –** İnvestisiya Şirkəti tərəfindən təqdim edilən və fərq müqavilələri ilə marja ticarətinin təşkil edilməsi məqsədi ilə istifadə edilən elektron ticarət platformasıdır.

1.24 **Mövqe –** Müştərinin maliyyə aləti üzrə götürdüyü risk;

1.25 **Uzun mövqe –** Müştərinin icra olunmuş alış sifarişi üzrə götürdüyü risk;

1.26 **Qısa mövqe –** Müştərinin icra olunmuş satış sifarişi üzrə götürdüyü risk;

1.27 **Açıq mövqe –** bu Standart Şərtlər çərçivəsində ticarət platformasında qeydə alınmış, maliyyə aləti üzrə uzun və ya qısa mövqelər yaratmış, lakin bağlanılmamış, cari alış və ya satış qiymətləri ilə ifadə olunan ticarət əməliyyatı;



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

1.28 **Bağlı mövqe –** Müştərinin hesabında (hesablarında) başa çatmış (hesablaşması tamamlanmış) ticarət əməliyyatı;

1.29 **Ticarət əməliyyatı –** maliyyə aləti üzrə uzun və ya qısa mövqelər açmaq üçün icra olunmuş sifariş;

1.30 **Əks mövqe ticarət əməliyyatı –** eyni maliyyə aləti üzrə Müştərinin sahib olduğu mövqeyə əks mövqedə olan icra olunmuş sifariş;

1.31 **Lot –** bir sifarişdə göstərilə bilən qiymətli kağız və ya törəmə maliyyə alətlərinin standart ölçü vahidi;

1.32 **Balans (balance) –** Müştərinin bağlı mövqeləri və ticarət hesabına etdiyi mədaxil və məxaricləri üzrə əsas valyutada ifadə olunmuş nəticə;

1.33 **Kapital (Equity) –** Müştərinin balansı və cari açıq mövqelərinin əsas valyutada ifadə olunmuş nəticələrinin cəmi;

1.34 **Sərbəst təminat marjası (Free Margin) –** Müştərinin ticarət hesabındakı kapitalının sifarişlər üzrə tələb olunan təminat məbləği ilə fərqidir;

1.35 **Təminat Marjası (Margin) –** marja ticarəti üzrə əməliyyatların davamlılığını təmin etmək məqsədi ilə Müştəri hesabında saxlanılmalı olan pul vəsaitinin minimum məbləğidir;

1.36 **Marja səviyyəsi –** fərq müqavilələri ilə marja ticarəti üzrə müştərinin pul vəsaitinin açılmış mövqe üzrə hesablanmış ilkin marjaya nisbətinin faizlə ifadəsi;

1.37 **Cari qiymət –** İnvestisiya Şirkətinin fərq müqavilələri üzrə müəyyən etdiyi qiymət;

1.38 **Spred –** Ticarət olunan maliyyə alətlərinin və ya baza aktivinin minimum vahidləri ilə ifadə olunan (punkt və ya "pips"lərdə) alış (ASK) və satış (BID) qiymətləri arasındakı fərqdir;

1.39 **Overnayt (Svop) –** Müştərinin ticarət etdiyi maliyyə alətinin (o cümlədən qiymətli kağızların) investisiya baza aktivinə, həmin baza aktivi ilə aparılan əməliyyatın həcminə və açılan mövqenin növünə uyğun olaraq hesablanan günlük faiz miqdarıdır;

1.40 **Skalpinq –** Müştərinin maliyyə aləti üzrə təhlil aparmadan qısa müddətli aralıqlarla davamlı və intizamsız şəkildə kiçik qiymət dəyişiklikliyi aralığında sifarişlər verməklə həyata keçirdiyi ticarət əməliyyatlarıdır;

1.41 **Əsas ticarət sessiyası (*Core Trading Session*) -** ABŞ ticarət bazarında müştəri sifarişlərinin yerləşdirilməsi və icrası üçün müəyyən edilmiş standart saatlardır. Standart



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

saatlar ABŞ-da bazar ertəsindən cümə gününə qədər (birja bayramları *(Exchange holidays)* istisna olmaqla) New York vaxtı (Şərq vaxtı *(Eastern Time -ET)* ) ilə saat 09:30-16:00 *(9:30 am ET - 4:00pm ET)* aralığını ehtiva edir;

1.42 **Birja bayramları *(Exchange holidays)* -** fond birjasının, valyuta birjasının və ya digər maliyyə bazarlarının müəyyən tarixlərdə fəaliyyət göstərmədiyi günləri ifadə edir. Bu qeyri-iş günləri, birjanın və ya müvafiq maliyyə bazarının fəaliyyət göstərdiyi ölkədə tətbiq olunan milli və ya dini bayramlar, eləcə də həmin ölkədə və ya bazarda baş verən xüsusi və ya istisna xarakterli hadisələrlə əlaqədar müəyyən edilə bilər.

1.43 **Genişləndirilmiş saatlar üzrə ticarət sessiyası (Extended Hours Trading Sessions) –** əsas ticarət sessiyasından fərqli saatlarda ticarət etmək imkanını nəzərdə tutan Əvvəlki bazar üzrə ticarət sessiyası ***(Pre-Market Session)*** və Sonrakı bazar üzrə ticarət sessiyasını ***(Post-Market Session)*** ehtiva edən ticarət sessiyası.

1.44 **Əvvəlki bazar sessiyası *(Pre-Market session)* -** ABŞ-da bazar ertəsindən cümə gününə qədər (birja bayramları *(Exchange holidays)* istisna olmaqla) New York vaxtı (Şərq vaxtı *(Eastern Time -ET)* ) ilə saat 04:00-09:30 *(4:00am ET -9:30am ET)* aralığını ehtiva edən müddət;

1.45 **Sonrakı bazar sessiyası *(Post-Market session)* -** ABŞ-da bazar ertəsindən cümə gününə qədər (birja bayramları *(Exchange holidays)* istisna olmaqla) New York vaxtı (Şərq vaxtı *(Eastern Time -ET)* ) ilə saat 16:00-20:00 *(4:00pm ET - 8:00pm ET)* aralığını ehtiva edən müddət;

## 2. İnvestisiya hesabı

2.1 İnvestisiya Şirkəti tərəfindən Müştərinin adına investisiya hesabı açılır. İnvestisiya hesabı qanunvericilikdə nəzərdə tutulan şərtlər və məhdudiyyətlər nəzərə alınmaqla investisiya hesabına daxil olan pul vəsaitinin, qiymətli kağızların, törəmə maliyyə alətlərinin və digər aktivlərin investisiya hesabına daxil edilməsi, açılmış investisiya hesabından müvafiq pul vəsaitlərinin, qiymətli kağızların, törəmə maliyyə alətlərinin və digər aktivlərin sifariş üzrə hərəkətinin təmin edilməsi, verilməsi və investisiya hesabı üzrə digər əməliyyatların aparılması məqsədi daşıyır.

2.2 Müştərilərə səlahiyyətli nümayəndə vasitəsilə məsafədən investisiya hesabının açılmasına yol verilmir.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

## 3. Hesabın fəaliyyət rejimi

3.1 Müştərinin öz investisiya hesabı üzrə müstəqil sərəncam vermək hüququ vardır.

3.2 İnvestisiya Şirkəti Müştərinin hesabı üzrə sərəncam vermək hüququ üzərində qanunvericiliklə nəzərdə tutulmuş hallar, bu Standart Şərtlər və müvafiq Müqavilə ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.

3.3 Müştərinin sərəncamı olmadan investisiya hesabındakı pul vəsaitinin silinməsinə, qiymətli kağızların, törəmə maliyyə alətlərinin və digər aktivlərin yüklü edilməsinə, öhəliklərinin icrası üçün bu Standart Şərtlər və müvafiq Müqavilədə nəzərdə tutulmuş qaydada İnvestisiya Şirkəti tərəfindən tədbirlər görülməsinə və ya digər hərəkət və hərəkətsizliklər edilməsinə məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş, bu Standart Şərtlər və ya müvafiq Müqavilədə nəzərdə tutulmuş hallarda yol verilir.

3.4 İnvestisiya Şirkəti investisiya hesabı üzrə əməliyyatları hesabın qalığı çərçivəsində Müştərinin sifarişləri, sərəncamlarının və digər sənədlərin daxil olmasının xronoloji ardıcıllığına riayət etməklə həyata keçirir. Hesabdakı pul vəsaiti, qiymətli kağızlar, törəmə maliyyə alətləri və digər aktivlər ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə investisiya hesabından pul vəsaiti qanunvericilikdə nəzərdə tutulan ardıcıllıqla silinir, qiymətli kağızlar, törəmə maliyyə alətləri və digər aktivlər isə İnvestisiya Şirkəti tərəfindən bazarda ən yaxşı qiymət prinsipinə əməl edilməklə satılır və satışdan əldə edilən pul vəsaitləri qanunvericilikdə nəzərdə tutulan ardıcıllıqla silinir. Silinmə əməliyyatından sonra Müştəri hesabındakı qalıq vəsait Müştərinin bank hesabına köçürülür. Müştəri tərəfindən bu Standart Şərtlərin və müvafiq müqavilənin imzalanması bu bənd üzrə müştərinin sifarişi hesab edilir və İnvestisiya Şirkəti tərəfindən icra olunur.

3.5 Müştəri üçün əməliyyat (iş) günü İnvestisiya Şirkətinin daxili iş rejimi qaydalarına uyğun olaraq müəyyən edilir.

3.6 “ABB Mobile” vasitəsilə təqdim edilmiş sifarişlər istisna olmaqla, bu Standart Şərtlərin 3.5-ci bəndində müəyyən edilmiş vaxtdan sonra daxil olmuş sifarişlər növbəti iş günündə daxil olmuş hesab olunur.

3.7 İnvestisiya Şirkəti tərəfindən qəbul edilərkən Müştərinin sifarişləri qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun yoxlanılır. Sifarişin məzmunu və forması Azərbaycan Respublikasının hüquqi aktları və ona uyğun müəyyənləşdirilmiş İnvestisiya Şirkətinin



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

daxili sənədləri ilə nəzərdə tutulmuş tələblərə uyğun gəlməlidir. Bu tələblərin pozulması ilə tərtib edilmiş, habelə qüsurlu sifarişlər İnvestisiya Şirkəti tərəfindən qəbul edilmir və icra edilmir.

3.8 İnvestisiya hesabında olan qalığa və ya müştərinin razılığı əsasında hesabdakı pul vəsaitlərindən istifadə etməsinə görə İnvestisiya Şirkəti Müştəriyə bu Standart Şərtlər çərçivəsində imzalanan müvafiq Müqavilədə başqa qayda nəzərdə tutulmayıbsa, heç bir faiz ödəmir. Müştərinin hesab qalıqlarının saxlanıldığı üçüncü şəxslər tərəfindən hesab qalığına faiz ödənilə bilər. Üçüncü şəxslər tərəfindən hesab qalığına ödənilən faizlər İnvestisiya Şirkətinin və ya üçüncü şəxslərin qərarına əsasən müştəriyə tam və ya qismən çatdırıla bilər.

3.9 İnvestisiya hesabının qeyri-qanuni məqsədlər, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması (qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin leqallaşdırılması), terrorçuluğun maliyyələşdirilməsi və fırıldaqçılıq (fraud) əməliyyatlarının aparılması məqsədilə açılması və istifadə edilməsi qadağandır.

3.10 İnvestisiya hesabı, İnvestisiya hesabı üzrə əməliyyatlar və qalıqları, habelə Müştəri haqqında məlumatlar kommersiya sirridir və üçüncü şəxslərə yalnız Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan hallarda və müvafiq Müqaviləyə uyğun olaraq verilmiş Müştəri razılığı üzrə İnvestisiya Şirkətinin kontragentlərinə (xidmətlərin göstərilməsi üzrə üçüncü şəxslərə, təsisçi şirkətə və digər üçüncü tərəflərə) verilir.

3.11 Bu Standart Şərtlər və müvafiq Müqavilə əsasında Müştəriyə açılmış İnvestisiya hesabı üzrə investisiya əməliyyatlarının aparılması zamanı Müştəri tərəfindən ərizə və ya hər hansı digər formada İnvestisiya Şirkətinə təqdim edilən sənəd(lər) Tərəflər arasında müvafiq investisiya xidmətləri üzrə əməliyyatlarının aparılması üçün əsas hesab edilir və İnvestisiya Şirkəti tərəfindən və ya investisiya xidmətləri üzrə əməliyyatlarının aparılması üçün vasitəçi olaraq üçüncü tərəflərə təqdim edilməklə və ya bir başa İnvestisiya Şirkəti tərəfindən icra edilir.

3.12 Müvafiq Müqavilə imzalandıqdan və İnvestisiya hesabı açıldıqdan sonra məlumatlar, habelə İnvestisiya hesabının sub hesabları olan digər hesablar barədə məlumatlar (tələb olduqda) İnvestisiya Şirkətinin texniki imkanları həddində seçdiyi aşağıdakı üsullardan biri ilə Müştəriyə göndərilir və müvafiq Müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilir:



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

3.14.1.Şəxsi kabinet;

3.14.2.“ABB Mobile” proqram təminatı

3.14.3.“SMS/E-mail məlumatlandırma”.

3.14.4.kağız və ya elektron daşıyıcı.

## 4. Tərəflərin ümumi hüquq və öhdəlikləri

*(hər bir investisiya xidməti üzrə xüsusi hüquq və öhdəliklər ümumi hüquq və öhdəliklərlə birgə tətbiq edilir)*

4.1 **İnvestisiya Şirkətinin investisiya hesabı öhdəlikləri:**

4.1.1 Müştəri tərəfindən qanunvericiliyin və şirkət daxili qaydaların, eləcə də bu Standart Şərtlərin tələbləri əsasında hesabın açılması üçün tələb olunan sənədlər, o cümlədən zəruri anketlər (doldurularaq) və digər tələb olunan sənəd və məlumatlar İnvestisiya Şirkətinə təqdim edildikdə müvafiq Müqavilə əsasında Müştərinin adına investisiya hesabı açmaq;

4.1.2 Müştərinin İnvestisiya hesabını idarə etmək, o cümlədən qiymətli kağızların və törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatları həyata keçirmək, mərkəzi depozitarın üzvü qismində müştərinin qiymətli kağızlarını saxlamaq;

4.1.3 Müştərinin müraciəti əsasında hesabdan çıxarışları ona təqdim etmək;

4.1.4 Müştəri tərəfindən Azərbaycan Respublikasının hüquqi aktlarına və şirkət daxili qaydalara əsasən hesabın açılması üçün tələb olunan sənədlər, zəruri anketlər (doldurularaq) İnvestisiya Şirkətinə təqdim edildikdə sonuncuya müvafiq Müqavilə əsasında investisiya hesabını açmaq və Müştəriyə İnvestisiya hesabının açılması barədə müsbət qərar qəbul edildikdə, müvafiq Müqavilənin imzalanması və İnvestisiya Şirkətinin Tariflərində nəzərdə tutulduğu halda müvafiq məbləğlərin Müştəri tərəfindən ödənilməsi anından 5 (beş) iş günü müddətində Müştəriyə hesabın açılmasını təmin etmək;

4.1.5 Müştərinin sifarişlərini Müştərinin İnvestisiya hesabında olan pul vəsaitləri, qiymətli kağız, törəmə maliyyə alətləri və ya digər aktivləri həddində həyata keçirmək;

4.1.6 Qanunvericilikdə nəzərdə tutulmuş qaydada İnvestisiya hesabı vasitəsilə aparılan əməliyyatlara dair kommersiya sirrini qorumaq;


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

4.1.7 Müvafiq Müqavilə hər hansı səbəbdən ləğv edildiyi halda, İnvestisiya hesabının qalığını Müştəriyə qaytarmaq (qanunvericiliklə Müştəri vəsaitlərinin qaytarılmasının qadağan edildiyi hallar istisna olmaqla);

4.1.8 Müştərinin hesab(lar)ına daxil olan pul vəsaitlərinin, qiymətli kağızların, törəmə maliyyə alətlərinin və digər aktivlərin toxunulmazlığını qanunvericilik və bu Standart Şərtlər və müvafiq müqavilənin şərtləri nəzərə alınmaqla təmin etmək.

4.2 **İnvestisiya Şirkətinin investisiya hesabı üzrə hüquqları:**

4.2.1 Aparılmış əməliyyatlar üzrə xidmət haqqını və xidmətin göstərilməsi ilə əlaqədar əlavə xərcləri İnvestisiya hesabından İnvestisiya Şirkətinin Tarifləri əsasında akseptsiz qaydada (Müştərinin sərəncamı olmadan) silmək;

4.2.2 İnvestisiya hesabının açılması üçün, zəruri olan sənədlərlə yanaşı, Müştərinin pul vəsaitlərinin qeyri-sağlam xarakterli əməliyyatlarda, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasında və terrorçuluğun maliyyələşdirilməsində istifadə edilmədiyinə əmin olmaq məqsədilə qanunvericiliyə zidd olmayan sənədlərin təqdim edilməsini sonuncudan tələb etmək;

4.2.3 Azərbaycan Respublikasının qanunları, tərəfdar çıxdığı beynəlxalq müqavilə və sazişlərdən irəli gələn, həmçinin zəruri hesab etdiyi digər hallarda Müştəridən onun pul axını, maliyyə mənbələri, özünün və imza hüququ olan şəxslərin eyniləşdirilməsinə dair, lakin bununla məhdudlaşmayan digər məlumatları tələb etmək;

4.2.4 Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və normativ xarakterli aktlarda nəzərdə tutulmuş hallarda Müştərinin investisiya hesabını bağlamaq, hesab üzrə əməliyyatları dayandırmaq və ya pul vəsaitləri, qiymətli kağızlar, törəmə maliyyə alətləri və digər aktivləri təyinatı üzrə silmək;

4.2.5 Qanunvericilikdə və/və ya Standart Şərtlərdə müəyyən olunmuş əsaslar olduqda müvafiq Müqaviləni birtərəfli qaydada ləğv etmək;

4.2.6 Müştərinin İnvestisiya Şirkəti qarşısında, habelə onun təsisçi şirkəti olan "ABB" ASC qarşısında və onun törəmə müəssisələri və əməkdaşlıq etdiyi şəxslər məcburi ödənişlər və rüsumlarla bağlı dövlət qarşısında icra edilməmiş hər hansı öhdəliyi olduqda onun İnvestisiya hesabındakı pul vəsaitini akseptsiz qaydada (Müştərinin sərəncamı olmadan) silmək və/və ya həmin öhdəliklərin icrasını təmin etmək üçün hesabda olan pul vəsaitlərini bloklaşdırmaq;



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

4.2.7 Müştəri Azərbaycan Respublikasının hüquqi aktları və şirkətdaxili qaydalar əsasında hesabın açılması üçün tələb olunan sənədləri, zəruri anketləri (doldurараq) İnvestisiya Şirkətinə təqdim etmədikdə, lakin, bununla məhdudlaşmayaraq İnvestisiya Şirkətinin öz mülahizəsinə əsasən İnvestisiya hesabının açılmasından, səbəblərini göstərmədən imtina etmək;

4.2.8 Müştəri tərəfindən bu Standart Şərtlər və müvafiq Müqavilə üzrə öhdəliklərin icrası pozulduqda, Qanunvericilikdə, Standart Şərtlərdə nəzərdə tutulmuş digər hallarda müvafiq Müqaviləni birtərəfli qaydada ləğv etmək, öhdəliklərin pozulması nəticəsində İnvestisiya Şirkətinə dəyən zərəri və bütün növ maliyyə itkilərini, habelə sui-istifadə halları nəticəsində əldə edilmiş əlavə qazanc məbləğlərini Müştəridən geri tələb etmək;

4.2.9 Qanunvericiliyin tələbləri nəzərə alınmaqla İnvestisiya Şirkətinin xidmət haqlarında və xidmətlərin göstərilməsi qaydalarında birtərəfli qaydada dəyişiklik etmək;

4.2.10 Müştəridən onun pul axını, maliyyə mənbələri, özünün və özü tərəfdən qanunvericiliklə icazə verilən formada çıxış edən üçüncü tərəflərin imza hüququ olan şəxslərin eyniləşdirilməsinə dair zəruri olan bütün sənədləri və məlumatları almaq;

4.2.11 İnvestisiya hesabının açılması üçün zəruri olan sənədlərlə yanaşı, Müştərinin pul vəsaitlərinin qeyri-sağlam xarakterli əməliyyatlarda, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasında və terrorçuluğun maliyyələşdirilməsi istifadə edilmədiyinə əmin olmaq məqsədilə qanunvericiliyə zidd olmayan digər sənədlərin də təqdim edilməsini tələb etmək;

4.2.12 Azərbaycan Respublikası mövcud qanunvericiliyində və normativ xarakterli aktlarda nəzərdə tutulmuş hallarda İnvestisiya hesabını bağlamaq, İnvestisiya hesabı üzrə əməliyyatları dayandırmaq və ya İnvestisiya hesabı üzrə vəsaitləri təyinatı üzrə silmək;

4.2.13 İnvestisiya xidmətlərinin göstərilməsi üzrə İnvestisiya Şirkətinin kontragentlərinə müraciət olunan zaman aid olduğu beynəlxalq təşkilatın tələblərinə uyğun olaraq hesab açılmasına məhdudiyyət qoyulan fiziki şəxslərə İnvestisiya hesabının açılmasından imtina etmək;

4.2.14 Mövcud qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilmiş və İnvestisiya Şirkətinə təqdim edilmiş məhkəmə qərarları və digər səlahiyyətli dövlət orqanlarının sərəncamlarını mübahisəsiz (Müştərinin sərəncamı olmadan) icra etmək;



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

4.2.15 İnvestisiya Şirkəti, habelə digər şəxslər tərəfindən İnvestisiya hesabına səhv olaraq daxil edilmiş, köçürülmüş və ya silinmiş pul vəsaiti, qiymətli kağız, törəmə maliyyə aləti və digər aktivlər barədə müvafiq araşdırma apararaq yanlış əməliyyatın və ya sui-istifadə halının nəticəsi olduğunu dəqiqləşdirdikdən sonra Müştəriyə xəbər vermədən akseptsiz qaydada silmək, geri köçürmək və ya bərpa etmək;

4.2.16 Müştərinin təqdim etdiyi və ya digər mənbələrdən əldə edilən məlumatlar əsasında İnvestisiya hesabının Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələrə və ya əsaslar çərçivəsində tətbiq edilən Ümumi Hesabatlılıq Standartına (Common Reporting Standard - CRS) uyğun olaraq müvafiq məlumatları səlahiyyətli dövlət orqanına vermək; Bununla Tərəflər razılaşırlar ki, İnvestisiya Şirkəti səlahiyyətli dövlət orqanına Müştəri haqqında şəxsi məlumatları və onun hesabları haqqında məlumatları/hesabatları qanunvericiliklə müəyyən olunan hallarda təqdim edə bilər və belə hesabatların göndərildiyi hallarda Müştəriyə heç bir əlavə bildirişin göndərilməsi və/və ya ondan hər hansı şəkildə razılıq alınması tələb olunmayacaqdır;

4.2.17 . Müştərinin İnvestisiya Şirkəti, o cümlədən təsisçi şirkət və əməkdaşlıq etdiyi şəxslər qarşısında onların təqdim etdiyi bank və ya digər müvafiq məhsulların şərtlərindən irəli gələn öhdəliyi (digər xidmət müqaviləsi bağlamaq, müəyyən hərəkətləri etmək və ya etməmək və s.) mövcud olduqda, həmin öhdəliklərin ilkin olaraq icrasını təmin etmək üçün İnvestisiya hesabını bloklaşdırmaq və müvafiq hesablara istənilən mədaxil və ya məxaric əməliyyatını məhdudlaşdırmaq;

4.2.18 Bu Standart Şərtlərə birtərəfli qaydada dəyişiklik və/və ya əlavələr etmək;

4.2.19 Qanunvericilikdə, bu Standart Şərtlərdə və müvafiq Müqavilədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

4.3 **Müştərinin İnvestisiya hesabı üzrə öhdəlikləri:**

4.3.1 Azərbaycan Respublikasının hüquqi aktlarına, İnvestisiya Şirkətinin daxili qaydalarına, eləcə də Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələrə yaxud digər əsaslara müvafiq olaraq İnvestisiya hesabının açılması üçün tələb olunan sənədləri, məlumatları və eləcə də zəruri anketləri (dolduraraq) İnvestisiya Şirkətinə təqdim etmək;

4.3.2 İnvestisiya hesabında saxlanılan pul vəsaitləri, qiymətli kağızlar, törəmə maliyyə alətləri və digər aktivlərdən Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun istifadə etmək;

4.3.3 Bu Standart Şərtlər və müvafiq Müqavilə üzrə İnvestisiya Şirkətinin göstərdiyi investisiya xidmətlərinə görə xidmət haqqlarını İnvestisiya Şirkətinin Tariflərinə uyğun və vaxtında ödəmək; Standart Şərtlər çərçivəsində müvafiq Müqaviləni imzalamaqla Müştəri İnvestisiya Şirkətinin mövcud Tarifləri ilə tanış olduğunu və onları qəbul etdiyini təsdiq edir. Müştəri qəbul edir ki, xidmət haqları ilə yanaşı İnvestisiya Şirkətinə aid olmayan sifarişin icrası ilə bağlı xərclər müştəri tərəfindən öncədən sorğu edilməlidir. Bu sorğunun edilməməsi Müştərinin bununla bağlı tam məlumatlı olması deməkdir. Müştəri investisiya Şirkətinin rəsmi internet səhifəsində yerləşdirilən xidmət haqları ilə mütəmadi olaraq tanış olmalıdır.

4.3.4 Bu Standart Şərtlərin müvafiq bənd və yarımbəndlərində qeyd edilmiş sənədləri və məlumatları İnvestisiya Şirkətinin tələb etdiyi gündən etibarən 1 (bir) iş günü müddətində İnvestisiya Şirkətinə təqdim etmək;

4.3.5 Adı, soyadı, atasının adı, vətəndaşlığı, ünvanı və digər əlaqə vasitələri bank hesabları üzrə rekvizitləri dəyişdikdə, müvafiq dəyişikliklərlə bağlı zəruri məlumatları 3 (üç) iş günü ərzində İnvestisiya Şirkətinə təqdim etmək;

4.3.6 İnvestisiya Şirkəti qarşısında üzərinə götürdüyü öhdəlikləri üzrə, o cümlədən əsas məbləğlər, pul öhdəlikləri üzrə pul vəsaitlərini, eləcə də İnvestisiya Şirkətinin xidmət haqlarına əsasən aparılan əməliyyatlar üzrə xidmət haqqını, o cümlədən Bu Standart Şərtlərində qeyd olunmuş məbləğləri akseptsiz qaydada (Müştərinin sərəncamı olmadan) İnvestisiya hesabından, Müştəriyə çatacaq vəsaitdən silmək və/və ya həmin öhdəliklərin icrasını təmin etmək üçün hesabda olan pul vəsaitləri, qiymətli kağızlar, törəmə maliyyə alətləri və digər aktivləri bloklaşdırmaq hüququnu İnvestisiya Şirkətinə vermək;

4.3.7 İnvestisiya hesabında olan pul vəsaiti, qiymətli kağız, törəmə maliyyə aləti və digər aktivlərdən hər hansı qeyri-qanuni məqsəd, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması(qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin leqallaşdırılması) və terrorçuluğun maliyyələşdirilməsi üçün istifadə etməyəcəyinə təminat vermək və buna görə məsuliyyət daşımaq;



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

4.3.8 Standart Şərtlər çərçivəsində müvafiq Müqavilə imzalandığı tarixdən sonra, Müştərinin İnvestisiya Şirkətinə təqdim etdiyi anketlərdə, formalarda və ya digər sənədlərdə qeyd edilmiş məlumatlar dəyişdikdə və ya həqiqətə uyğun olmaması aşkar olunduğu təqdirdə, İnvestisiya Şirkəti tərəfindən sorğu verildiyi tarixdən 1 (bir) iş günü müddətində yazılı formada məlumat vermək;

4.3.9 İnvestisiya hesabından istifadə nəticəsində İnvestisiya Şirkətinə dəyən zərəri və bütün növ maliyyə itkilərini, sui-istifadə halları o cümlədən texnologiyalarda baş vermiş texniki nasazlıqlar gecikmələr və digər sui istifadəyə səbəb olmuş əsaslar nəticəsində əldə edilmiş əlavə qazanc məbləğlərini İnvestisiya Şirkətinə ödəmək;

4.3.10 İnvestisiya hesabı üzrə sənədləri özündə saxlamaq və sifariş əsasında hər hansı bir əməliyyatı mübahisələndirdiyi halda müvafiq əməliyyata dair sənədləri İnvestisiya Şirkətinə təqdim etmək və əməliyyatın mübahisələndirilməsi ilə bağlı İnvestisiya Şirkətinin xidmət haqqlarını və sifarişin icrası ilə bağlı xərcləri ödəmək;

4.3.11 İnvestisiya hesabı üzrə məlumatlar itirildikdə, oğurlandıqda, məhv olduqda, səlahiyyəti olmayan şəxs tərəfindən qanunsuz istifadə edildikdə, zədələndikdə, habelə fırıldaqçılıq əməliyyatları baş verdikdə, o cümlədən İnvestisiya hesabı üzrə əməliyyatların aparılması zamanı İnvestisiya hesabının rekvizitlərinin üçüncü şəxslərə açıqlanması şübhələri yarandıqda dərhal İnvestisiya Şirkətinin müştəri xidmətinin telefon nömrəsi vasitəsilə İnvestisiya Şirkətini xəbardar etmək; Bu hallarda Müştərinin İnvestisiya Şirkəti tərəfindən eyniləşdirilməsi üçün zəruri olan bütün məlumatlar İnvestisiya Şirkətinin əməkdaşına bildirilməlidir.

4.3.12 Hesab üzrə sərəncam vermək səlahiyyətinin digər şəxsə həvalə edilməsinə dair etibarnaməni ləğv etdikdə bununla bağlı dərhal İnvestisiya Şirkətini xəbərdar etmək (Bu vəzifənin icra edilməməsi ilə əlaqdar Müştəriyə dəyən hər hansı zərərə (ziyana) görə İnvestisiya Şirkəti məsuliyyət daşımır);

4.3.13 İnvestisiya hesabı vasitəsilə aparılan istənilən sifarişə və sifariş əsasında həyata keçirilən əməliyyata görə tam məsuliyyət daşımaq, habelə xidmətlərdən istifadəsi nəticəsində İnvestisiya Şirkətinə və digər üçüncü şəxslərə dəyən zərərin və bu Standart şərtlərin tələbləri nəzərə alınmaqla bütün növ maliyyə itkilərinin əvəzinin tam həcmdə ödənilməsini həyata keçirmək;



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

4.3.14 Bu Standart Şərtlər və qanunvericiliyin tələbləri nəzərə alınmaqla qəbul edilən qaydalara əməl etmək.

4.4 **Müştərinin İnvestisiya hesabı üzrə hüquqları:**

4.4.1 İnvestisiya Şirkətinə təqdim etdiyi sifariş (sərəncam) əsasında investisiya xidmətləri üzrə əməliyyatların aparılmasını İnvestisiya Şirkətindən tələb etmək;

4.4.2 İnvestisiya Şirkətindən qanunvericiliyin tələblərinə uyğun olaraq hesabat almaq;

4.4.3 İnvestisiya Şirkətinin bu barədə 30 (otuz) gün əvvəlcədən yazılı şəkildə xəbərdar edilməsi, İnvestisiya Şirkəti qarşısında bu Standart Şərtlərdən və müvafiq Müqavilədən irəli gələn bütün öhdəliklərin icra edilməsi və İnvestisiya Şirkəti tərəfindən tələb irəli sürüldükdə tələbin İnvestisiya Şirkətinə qaytarılması şərtilə müvafiq Müqaviləni birtərəfli qaydada ləğv etmək.

## 5. Standart şərtlərin ayrılmaz tərkib hissələri

5.1 **“Məlumat mərkəzi”:**

5.1.1 İnvestisiya Şirkəti özünün və ya üçüncü şəxslərin köməyi vasitəsilə Müştəriyə “Məlumat mərkəzi” xidmətini göstərir. “Məlumat mərkəzi” xidməti dedikdə Telefonla zəng edərək müraciəti əsasında ona verilmiş eyniləşdirmə sualları və digər metodlar əsasında eyniləşdirilməsi təmin edilmiş Müştəriyə İnvestisiya hesabı üzrə aparılmış əməliyyatlar barədə məlumat verilməsi başa düşülür.

5.1.2 Müştəri eyniləşdirmə məlumatlarını mühafizə etməlidir. İnvestisiya Şirkəti eyniləşdirmə məlumatlarının İnvestisiya Şirkətinin təqsiri olmayan hallarda üçüncü şəxslərin əlinə keçməsinə görə məsuliyyət daşımır.

5.2 **“SMS/E-mail məlumatlandırma”:**

5.2.1 Müştəriyə bu Standart Şərtlər çərçivəsində imzalanan müvafiq Müqavilələrin qüvvədə olduğu müddətdə İnvestisiya Şirkəti tərəfindən sənədlər, hesabatlar və digər məlumatlar  “SMS/E-mail məlumatlandırma” vasitəsilə təqdim edilə bilər.

5.2.2 Müştəri “E-mail-Məlumatlandırma” üçün işlək elektron poçt ünvanına, “SMSMəlumatlandırma” üçün isə işlək mobil telefon nömrəsinə malik olmalı və İnvestisiya Şirkətinə təqdim etməlidir.


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

5.2.3 Müştəri ona təqdim olunan xüsusi kodu kənar şəxslərə açıqlamamağı, həmçinin elektron poçt qutusunu və mobil telefonunu kənar şəxslərin müdaxiləsindən qorumağı öhdəsinə götürür, buna görə məsuliyyət daşıyır.

5.2.4 Müştəri elektron poçt ünvanını və ya mobil telefonun nömrəsini dəyişdikdə, onun kompüteri və ya mobil telefonu və ya mobil telefonunun SİM-kartı itirildikdə, həmçinin öz elektron poçt qutusuna kənar şəxslərin müdaxiləsini aşkar etdikdə dərhal bu barədə İnvestisiya Şirkətinə rəsmi olaraq müraciət etməlidir.

5.2.5 Müştəri müvafiq xidmətlərə qoşulmaya dair İnvestisiya Şirkətinə təqdim etdiyi sənədlərdə müvafiq məlumatların dəqiqliyinə və düzgünlüyünə görə məsuliyyət daşıyır.

5.2.6 Müştəri İnvestisiya Şirkətindən asılı olmayan səbəblərdən irəli gələn bütün riskləri öz üzərinə götürür. İnvestisiya Şirkəti, ondan asılı olmayan səbəblərə görə (üçüncü şəxslərin avadanlığında, şəbəkələrində və əlaqə xətlərində qəzalar və başqa nasazlıqlar və s.) müvafiq məlumatların Müştəriyə göndərilməsində gecikmələrə, habelə bu kimi hallarda məlumatların bütövlüyünə və məxfiliyinə görə məsuliyyət daşımır və Müştəri İnvestisiya Şirkətindən asılı olmayan səbəblərdən irəli gələn bütün riskləri öz üzərinə götürür.

5.3 **“ABB mobile”:**

5.3.1 Müştərinin müraciəti əsasında və İnvestisiya Şirkətinin və ya əsas müəsisənin rəsmi internet səhifəsində (https://abb-bank.az/storage/uploads/files/1642144290_1607953027-qaydalar-aze.pdf) yerləşdirilmiş və ya mobil tətbiqdə təqdim edilmiş “ABB mobile”-ın istifadə qaydaları ilə tanış olmaqla Müştəri “ABB mobile” vasitəsilə İnvestisiya Şirkətinin bu Standart Şərtlər və müvafiq Müqavilə əsasında göstərdiyi investisiya xidmətlərindən (proqram təminatında yaradılmış imkanlar daxilində) istifadə edə bilər. Müştəri qəbul edir ki, “ABB mobile” İnvestisiya Şirkətinə məxsus olmayan investisiya xidmətlərinin çatdırılma kanalıdır və “ABB mobile” vasitəsilə xidmətlərin göstərilməsində yaranmış çətinliklər, mümkünsüzlüklər (hesabların açılması, sifarişlərin üzrə hərəkətlərin, məlumat və sənədlərin təqdim edilməsi və digər əsaslar üzrə) üzrə hər hansı məsuliyyət daşımır. Bu səbəbdən Müştəri bu kimi hallar baş verdikdə, investisiya xidmətlərinin təqdim edilməsi üzrə itkiyə məruz qalmamaq üçün hərəkət və ya hərəkətsizliyi ilə bağlı İnvestisiya Şirkətinə kağız, elektron və ya qanunvericiliklə qadağan olunmayan digər vasitəsilərlə


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

çatdırılmanı etməlidir. İnvestisiya Şirkəti “ABB mobile” üzrə informasiya həllərində baş vermiş və Müştərinin itkisinə səbəb olmuş hallar, əsaslar üzrə hər hansı məsuliyyət daşımır.

5.3.2 Müştərinin Şəxsi imzasının başqa analoqundan istifadə edilməklə “ABB Mobile” vasitəsilə əməliyyatların aparılması və sənədlərin imzalanması zamanı İnvestisiya Şirkətinin təqsiri olmadan yarana biləcək bütün risklərə görə məsuliyyət Müştərinin üzərinə düşür və İnvestisiya Şirkəti buna görə məsuliyyət daşımır.

5.3.3 Müştəri tərəfindən proqram təminatının düzgün quraşdırılmamasından əmələ gələn problemlərə görə, eləcə də İnternet şəbəkəsində yaranmış problemlər səbəbindən “ABB Mobile” tətbiqinin, mobil cihazın proqramının müvafiq qaydada işləməməsinə görə, Müştəri tərəfindən məlumatların ötürülməsi və qəbulu zamanı yaranan problemlərə görə İnvestisiya Şirkəti məsuliyyət daşımır.

5.3.4 Müştəri “ABB-Mobile” vasitəsilə həyata keçirilən elektron əməliyyatların mövcud qanunvericiliyə uyğun tərtib edilməsinə, onların buraxılış məlumatlarını istifadə etməklə təsdiq edilməsinə, habelə Müştəri tərəfindən sistemə daxil edilən məlumatların dürüstlüyünə və tamlığına görə məsuliyyət daşıyır, bununla bağlı yarana biləcək bütün risklərə və Müştəriyə dəymiş zərərə, eləcə də bütün növ maliyyə itkilərinə görə görə məsuliyyəti tam olaraq Müştəri daşıyır.

5.3.5 İnvestisiya Şirkəti “ABB Mobile” üzərindən müştərilərə təqdim edilən investisiya xidmətlərinə dair birtərəfli qaydada dəyişikliklər edə bilər. Müştəri bu Standart Şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla qəbul edir ki, bu yarımbəndə uyğun olaraq dəyişikliklərin edilməsi onun üçün məqbuldur.

## 6. Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi üzrə standart şərtlər

6.1 Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icra edilməsi əsas investisiya xidməti olaraq İnvestisiya Şirkəti tərəfindən bu Standart Şərtlər və müvafiq Müqaviləni bağlamış, İnvestisiya Şirkəti tərəfindən İnvestisiya hesabı açılmış və yalnız İnvestisiya Şirkətinin üçüncü tərəfləri olan yerli bazarda Müştərinin adına olan lakin Müştərinin xeyrinə açılan depo hesabı olan, xarici bazarda isə İnvestisiya Şirkətinin adına və ya Müştərinin adına (üçüncü tərəflər


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

tərəfindən xidmətin təqdim edildiyi şərtlərdən asılı olaraq) olan lakin Müştərinin xeyrinə açılan hesabı (depo və ya marja) olan müştərilərə münasibətdə həyata keçirilir.

6.2 İnvestisiya Şirkəti Müştərilərinə elektron (sifarişlərin bir başa elektron olaraq platformaya daxil edilməsi yolu ilə) və ya standart formada (sifarişlərin İnvestisiya Şirkətinə qanunvericiliklə icazə verilən formada təqdim edilməsi yolu ilə) olmaqla qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icra edilməsi xidmətini göstərir.

6.3 İnvestisiya Şirkəti Müştərilərinə formasından asılı olmayaraq Azərbaycan Respublikasında emissiya edilmiş (bundan sonra – yerli bazarda) qiymətli kağızlar, törəmə maliyyə alətləri və xarici ölkələrdə emissiya edilmiş (xarici bazarda) qiymətli kağızlar, törəmə maliyyə alətləri vasitəsi ilə qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı Müştəri sifarişlərinin qəbulu və icra edilməsi xidmətini göstərir.

6.4 Müştərinin sifarişi Azərbaycan Respublikası hüdudlarından kənarda (xarici bazarlarda) ticarət olunan qiymətli kağızlar, törəmə maliyyə alətləri və ya digər aktivlər ilə bağlı olduqda, İnvestisiya Şirkəti Müştərinin sifarişini xarici kontragent ilə bağladığı müqavilə əsasında icra edir. Bu zaman Müştərinin sifariş yerləşdirməsi, xarici kontragentin təqdim etdiyi şərtlərlə razılıq ifadəsinə barabər tutulur və Müştəri mövcud kontragent risklərini qəbul etmiş sayılır. Müştəri bu müqaviləni imzalamaqla başa düşür və qəbul edir ki, xarici kontragent tərəfindən müəyyən edilmiş ticarət şərtləri habelə risklərlə tanış olmaq müştərinin öhdəliyidir və həmin ticarət şərtlərindən yaranan zərərlə bağlı İnvestisiya Şirkəti hər hansı məsuliyyət daşımır. Xarici bazar üzrə investisiya bazarlarının müxtəlifliyi və çoxluğu səbəbindən Müştəri qiymətli kağız və ya törəmə maliyyə alətləri üzrə sifariş verən zaman bu aktivlərin emissiyası üzrə şərtlərlə öncədən tanış olmalı, emissiya edildiyi ölkənin fond birjalarının və birjadan kənar əməliyyatların qaydaları ilə tanış olmalı və bilməlidir. Müştərinin müraciəti əsasında İnvestisiya Şirkəti sənəd və məlumatları təqdim edə bilər. Sifarişin təqdim edilməsi, Müştərinin bu münasibətləri tənzimləyən xarici qanunvericilik aktlarının, fəaliyyəti tənzimləyən qaydaların, şərtlərin, sənəd və məlumatların və digər əsasların bilinməsi kimi qəbul edilir və İnvestisiya Şirkəti Müştərinin bilməli olubda bilmədiyi əsas üzrə dəyən ziyana görə hər hansı məsiliyyət daşımır.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

6.5 Müştəri bu standart şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla qəbul edir ki, xarici bazar əməliyyatlarının aparılması zamanı xarici kontagentin müəyyən etdiyi şərtlər daxilində əməliyyatlar aparılmalı və həmin şərtlərə əməl edilməlidir. Qeyd edilən halda müştəri qəbul edir ki, bu standart şərtlər çoxtərəfli müqavilə statusu daşıyır və xarici bazar əməliyyatlarının aparılması məqsədilə xarici kontragent tərəfindən təqdim edilən müştəri tərəfindən qəbul edilməli, təsdiq edilməli və ya imzalanmalı olan sənədlər xarici dildə ola bilər. Bu halda Müştəri qeyd edilən sənədlərin məzmununun izah edilməsi üçün İnvestisiya Şirkətinə müraciət edə bilər. Müştəri tərəfindən bu kimi hallarda İnvestisiya Şirkətinə müraciət edilməməsi və sözügedən sənədlərin qəbul edilməsindən, təsdiq edilməsindən və ya imzalanmasından sonra müştəri tərəfindən ilk sifarişin verilməsi müştəri tərəfindən həmin sənədlərin və şərtlərin məzmununun başa düşülməsi və həmin şərtlərin müştəri tərəfindən qəbul edilməsi kimi qiymətləndirilir və bununla bağlı yarana biləcək risklər və zərərlə bağlı İnvestisiya Şirkəti hər hansı məsuliyyət daşımır.

6.6 Xarici bazar əməliyyatlarının aparıldığı bazarların spesifik xüsusiyyətlərini nəzərə alaraq, Müştəri bu Standart Şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla təsdiq edir ki, müxtəlif xarici bazarlarda ticarət əməliyyatlarının həyata keçirilməsi üçün tətbiq olunan saatlar fərqli ola bilər. Həmçinin bəzi günlərdə və saatlarda bu bazarlarda əməliyyatların (o cümlədən sifarişlərin yerləşdirilməsi) aparılması mümkün olmaya bilər. Müştəri bu xüsusiyyətləri qəbul edir və nəzərə alır ki, ayrı-ayrı xarici bazarlarda xüsusi ticarət saatları tətbiq oluna bilər.

6.7 Müştəri, bu Standart Şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla, Əsas və Genişləndirilmiş saatlar üzrə ticarət sessiyalarının dəyişkən xarakter daşıdığını qəbul edir. Müştəri qeyd edilən sessiyaların müddətində baş verə biləcək dəyişikliklər barədə mütəmadi olaraq məlumat toplamaq öhdəliyini üzərinə götürür və bu məqsədlə sessiyaların aktual statusu ilə bağlı İnvestisiya Şirkətinə müraciət etməlidir.

6.8 Əgər sifariş əvvəlki ticarət günündə, Nyu-York vaxtı ilə saat 20:00-dan (8:00 pm ET) sonra yerləşdirilərsə və bu sifariş Genişləndirilmiş saatlar üzrə ticarət sessiyası müddətində təqdim olunarsa, o halda sifariş ticarət növbəsinə daxil edilir və ilk növbədə əvvəlki bazar sessiyası çərçivəsində icraya yönəldilir. Əgər sifariş həmin sessiya ərzində tam icra olunmazsa, sifariş avtomatik olaraq növbəti Əsas Ticarət Sessiyasına ötürülür. Əgər sifariş orada da icra olunmazsa, Sonrakı Bazar Sessiyasına keçir. Müştəri bu


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

Standart Şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla təsdiq edir ki, ABŞ-da bazar ertəsindən cümə gününə qədər (Exchange Holidays – birja tətil günləri istisna olmaqla), Nyu-York vaxtı ilə saat 20:00-da (8:00 pm ET), Sonrakı Bazar Sessiyası bitdikdən sonra icra olunmamış və ya yalnız qismən icra olunmuş sifarişlər avtomatik olaraq ləğv ediləcəkdir.İnvestisiya Şirkəti müştəri sifarişlərinin qəbulu və icrası əsas investisiya xidmətini yalnız müştərinin və ya onun səlahiyyətli nümayəndəsinin sifarişi əsasında həyata keçirir.

6.9 Birja tətili *(Exchange Holidays)* günlərində Əsas ticarət sessiyası və Genişləndirilmiş saatlar üzrə ticarət sessiyası həyata keçirilmir.

6.10 Müştəri bu standart şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla qəbul edir ki, ticarət sessiyaları üzrə saatlarda dəyişiklik etmək və ya sessiyaları dayandırmaq hüququ xarici kontragentə məxsusdur. Bu kimi hallar baş verərsə müştəriyə dəyən zərərə görə İnvestisiya Şirkəti hər hansı məsuliyyət daşımır.

6.11 Bu Standart Şərtlərin 6.5-6.10-cu bəndləri bütün xarici bazarlara şamil edilmir.

6.12 Müştəri investisiya hesabı üzrə ticarət əməliyyatlarını aparmaq üçün üçüncü şəxsə sərəncam hüququnu notarial qaydada təsdiq edilmiş və aşağıdakı səlahiyyətlərin etibar edildiyini özündə ehtiva edən etibarnamə əsasında verir (*Etibarnamə İnvestisiya Şirkətinə təqdim edildikə investisiya Şirkəti tərəfindən etibarnamə məqbul hesab edilərsə həmin etibarnamə əsasında əməliyyatlar aparıla bilər*):

- *Ona məxsus olan qiymətli kağızların alqı-satqısı və rəsmiləşdirilməsi, almağa, satmağa dair imza etmək (“ABB-İnvest İnvestisiya Şirkəti” QSC-də);*
- *Hüquqi şəxslər tərəfindən emissiya edilən qiymətli kağızların alınması üçün sifariş verilməsi (“ABB-İnvest İnvestisiya Şirkəti” QSC-də);*
- *Qiymətli kağızların alınması, həmçinin ona məxsus qiymətli kağızların münasib bildiyi dəyərlə satılması üçün “ABB-İnvest İnvestisiya Şirkəti” QSC-də və onun əsas Cəmiyyəti olan “Azərbaycan Beynəlxalq Bankı” ASC-də müvafiq olaraq investisiya və bank hesablarının açılması, bu hesablar üzərində sərəncam verilməsi;*
- *“ABB-İnvest İnvestisiya Şirkəti” QSC-də qiymətli kağızların alışı və satışının təşkili üçün müqavilələrin imzalanması, investisiya hesabı və “ABB-İnvest İnvestisiya Şirkəti” QSC tərəfindən müştəriyə açılan digər hesabların açılması, bu hesablar üzrə sərəncam verilməsi, hesablar arasında köçürmələr edilməsi, qiymətli kağızlar üzrə*

*çıxarışlar əldə edilməsi, qiymətli kağız və ya törəmə maliyyə alətləri ilə bağlı əməliyyatların aparılması ilə əlaqədar sifariş və digər əlaqəli sənədlərin imzalanması;*

- *"ABB-İnvest İnvestisiya Şirkəti" QSC-nin investisiya xidmətlərinin göstərilməsinə dair Standart Şərtləri ilə müştəri üçün müəyyən edilmiş hüquq və vəzifələrin həyata keçirilməsi.*

6.13 Müştəri etibarnamə verdiyi şəxslərin onun hesabı üzrə bütün hərəkət və ya hərəkətsizliyinə görə məsuliyyəti özü daşıyır, hesab qalıqları üzrə bütün dəyişikliklər müştəriyə aid edilir;

6.14 Müştəri istədiyi zaman İnvestisiya Şirkətinə müraciət edərək etibarnamə verdiyi şəxslərin sərəncam hüququnu dayandıra bilər. Müştəri belə müraciəti etdikdə onun marja hesabı üzrə açıq mövqeyi olmamalıdır;

6.15 İnvestisiya Şirkəti Müştərinin verdiyi etibarnamənin bitmə müddəti üzrə uçot aparmır. Etibarnamə müddətinin bitməsi, onun ləğvi və ya digər hallarla bağlı Müştəri İnvestisiya Şirkətinə 3 (üç) iş günü ərzində məlumat verir və belə müraciətə qədər bütün məsuliyyət müştəriyə aiddir.

6.16 Müştərinin etibarnamə verdiyi şəxsə münasibətdə etibarnamənin ləğvi, müddətinin bitməsi və digər hallar ilə əlaqədar hər hansı dəyişikliklər İnvestisiya şirkətinə birbaşa, rəsmi şəkildə bildirilmədikdə İnvestisiya şirkəti, Müştəri hesabındakı əməliyyatlarla bağlı heç bir məsuliyyət daşımır;

6.17 İnvestisiya Şirkəti müştərilərin rəqabətli, qeyri-rəqabətli və ya bu sifarişlərin kombinasiyası əsasında formalaşan digər növ sifarişlərini qəbul edir. (sifarişlərin növləri ticarət olunduğu yurisdiksiyadan asılı olaraq dəyişə bilər)

6.18 Müştəri sifariş verdikdə onun hesab üzrə qalıq məlumatları yoxlanılır.

6.19 Müştəri hesabındakı qalığın hesablanmasında Müştərinin verdiyi cari sifarişlər üzrə öhdəlikləri və hər hansı əməliyyatının təminatı məqsədilə hesabında dondurulmuş vəsaitlər nəzərə alınmır.

6.20 İnvestisiya Şirkəti müştəri sifarişini qiymətli kağız və ya törəmə maliyyə alətinin qiyməti və sifarişin icra olunması ilə bağlı xərclər də daxil olmaqla ümumi xərclər baxımından Müştəri üçün ən yaxşı qiymət prinsipi əsasında icra edir.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

6.21 Müştəri sifarişlərinin icrası bazarda müvafiq əks sifarişlərin mövcudluğu və bu sifarişlər üzrə qiymətdən asılıdır. Belə ki, Müştəri tərəfindən sifarişin verilməsi heç bir halda əqdin baş tutması üçün müstəsna şərt hesab edilmir.

6.22 Sifarişin müddəti müqavilənin qüvvədə olma müddətindən artıq olmamalı və müştəri tərəfindən sifariş ən azı ildə bir dəfə yenilənməlidir.

6.23 Müştəri tərəfindən sifarişin təqdim edilməsi, bu sifarişdə qeyd edilmiş və ya elektron proqram təminatları vasitəsi ilə Müştəriyə təqdim edilmiş bütün parametrləri, o cümlədən, qiymət, predmet (qiymətli kağız, törəmə maliyyə aləti və ya hər hansı aktiv), ödənişlər üzrə bütün ticarət şərtlərini qəbul etməsi kimi qiymətləndirilir.

6.24 Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə bütün növ ticarət əməliyyatları Müştəri sifarişinə uyğun olaraq İnvestisiya Şirkəti tərəfindən Müştəri adına və hesabına həyata keçiriləcək və bu əməliyyatlar nəticəsində yaranacaq bütün mənfəət və zərərlər Müştərinin hesabına aid ediləcək.

6.25 Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə Müştəri tərəfindən verilən sifariş qərarları ilə bağlı bütün məsuliyyət Müştəriyə aiddir. İnvestisiya riski (qiymət dəyişməsi nəticəsində mümkün itki və s.) Müştərinin riskidir.

6.26 Müştəriyə sifarişin icrası və ya ondan imtina edilməsi barədə müvafiq olaraq hesabat və ya məlumatı sifarişin İnvestisiya Şirkəti tərəfindən qəbul və ya imtina edilməsindən sonrakı 1 (bir) iş günündən gec olmayaraq təqdim edilir. Müştəri sifarişi elektron proqram təminatı vasitəsilə təqdim etdikdə hesabat və ya məlumat bilavasitə Müştəri tərəfindən elektron proqram təminatı vasitəsilə əldə edilir.

6.27 İnvestisiya şirkəti, müştərinin sifarişinin icrasından sonra növbəti iş günü və ya sifarişin icrasının təsdiqi haqqında məlumatı üçüncü şəxsdən aldığı gündən sonra növbəti iş günündən gec olmayaraq, sifarişin icrası barədə hesabatı müştəriyə təqdim edir. Elektron proqram təminatı üzrə sifarişlərin icrası barədə hesabat Müştəri tərəfindən həmin proqram təminatı vasitəsilə əldə edilə bilər.

6.28 Müştəri İnvestisiya Şirkətinə təqdim etdiyi sifarişə dəyişiklik etməklə yalnız icra edilməmiş sifarişi tam və ya qismən ləğv edə bilər. Bu halda İnvestisiya Şirkəti sifarişin icra edilməmiş hissədə ləğvini mümkün ən yaxşı səyləri ilə həyata keçirir. Lakin, Müştəri qəbul edir ki, bazar şərtləri davamlı olaraq dəyişdiyi üçün, sorğunun tam olaraq yerinə



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

yetirilməsi mümkün olmaya bilər. Sifariş mobil tətbiq vasitəsilə təqdim edildikdə dəyişiklik Müştəri tərəfindən bilavasitə mobil tətbiqdə icra edilir.

6.29 Formasından asılı olmayaraq yerli bazarda Müştəri tərəfindən təqdim edilmiş sifariş Mərkəzi Bankın, Azərbaycan Respublikasında fəaliyyət göstərən fond Birjalarının birjadan kənar əqdlər üzrə sifariş isə mərkəzi depozitarın qaydalarına uyğun olaraq Müştəri tərəfindən tərtib edilməli və təqdim edilməlidir. Formasından asılı olmayaraq xarici bazarda Müştəri tərəfindən təqdim edilmiş sifariş ticarət oldunduğu ölkənin nəzarət orqanının, ticarət olunduğu ölkədə fəaliyyət göstərən fond Birjalarının, birjadan kənar əqdlər üzrə sifariş isə icrasını həyata keçirən üçüncü tərəflərin qaydalarına uyğun olaraq Müştəri tərəfindən tərtib edilməli və təqdim edilməlidir.

6.30 Müştəri Sifariş formasını nümunəsini İnvestisiya Şirkətindən əldə edə bilər. Müştəri tərəfindən belə bir müraciət olmadıqda sifariş üzrə tələblərin Müştəri tərəfindən bilindiyi kimi qəbul edilir və sifarişin düzgün tərtib edilməməsi səbəbindən Müştəriyə dəyən ziyana görə İnvestisiya Şirkəti məsuliyyət daşımır.

6.31 Aşağıdakı hallarda İnvestisiya Şirkəti müştəri sifarişlərinin icrasını dayandırır və sifariş qüvvədən düşmüş sayılır:

6.31.1 *Sifariş müştəri tərəfindən ləğv edildikdə;*

6.31.2 *Sifarişdə göstərilmiş icra müddəti başa çatdıqda;*

6.31.3 *Sifarişdə olan mexaniki səhvlər (qiymət, miqdar səhvi, simvol səhvi və s.) nəticəsində sifarişin icrası mümkün olmadıqda.*

6.32 Məcburi hüquqi qüvvəyə malik məhkəmə qərarı qəbul edildikdə və digər prosessual məcburiyyət tədbirləri tətbiq olunduqda İnvestisiya Şirkəti Müştərinin sifarişinin icrasını dayandırır və investisiya xidmətlərinin göstərilməsindən imtina edir.

6.33 Müştəri sifarişin icrası üçün tələb edilən məbləği, qiymətli kağızı, maliyyə aktivini və ya müvafiq təminat həcmini (müştəri ilə təminat haqqında əlavə razlaşma olduqda) İnvestisiya Şirkətinin hesabına köçürmədikdə İnvestisiya Şirkəti Müştərinin sifarişinin icrasını dayandıra və investisiya xidmətlərinin göstərilməsindən imtina edə bilər.

6.34 İnvestisiya Şirkəti Müştəri tərəfindən təqdim olunmuş sənədlərdə müştəri tərəfindən təqdim edilmiş pul vəsaitinin və əqdlərin mənbəyinin qeyri-qanuni xarakter daşıdığına dəlalət edən faktlar və ya şübhəli hallar aşkar etdikdə, Müştəri bu pul vəsaiti və əqdlərin


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

mənbəyinin qanuni olmasını təsdiq edənə qədər, Müştərinin sifarişinin icrasını dayandıra və ona xidmətlərin göstərilməsindən imtina edə bilər.

6.35 İnvestisiya şirkəti Müştəri tərəfindən verilmiş sifarişin ləğv edilməsi və ya sifarişin icra edilməmiş hissəsinin tam və ya qismən ləğv edilməsi barədə 1 (bir) iş günündən gec olmayaraq (Qanunvericiliklə müəyyən edilmiş tələblərin icrası məlumatlandırma müddətinin uzanmasına səbəb olduğu hallar istisna olmaqla) Müştərinin yazılı və ya elektron formada məlumatlandırılmasını təmin edir;

6.36 Müştəri verdiyi sifarişlər və apardığı əməliyyatlar, eləcə də aktivləri və öhdəlikləri barədə İnvestisiya Şirkətindən məlumat ala bilər.

6.37 Müştəri onun sifarişinin icrası ilə əlaqədar İnvestisiya Şirkətinin çəkdiyi aşağıdakı xərcləri İnvestisiya Şirkətinə ödəyir:

6.37.1 *Sifarişlərin icra olunması yeri üzrə ödənişlər;*

6.37.2 *Kliring haqları;*

6.37.3 *Sifarişin icrasına cəlb edilmiş üçüncü tərəfə ödənişlər.*

6.38 Müştərinin qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə sifarişinin icra olunması üçün vəsaitin köçürülməsində yaranan bank komissiyaları sifarişin icrasına cəlb edilmiş üçüncü tərəfə ödəniş olaraq qəbul edilir və Müştəri tərəfindən qarşılanır. Bu səbəbdən Müştəri tərəfindən bank əməliyyatları həyata keçirilərkən seçilmiş bank komissiyaları Müştəri tərəfindən öncədən öyrənilməli və sifariş təqdim edən zaman Müştəri tərəfindən nəzərə alınmalıdır.

6.39 Müştəri, əgər emissiya prospektində və ya emissiya haqqında qərarda ayrı qayda nəzərdə tutulmayıbsa abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra onların geri çağırılmasını tələb edə bilməz. (“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikası Qanununun 10.6-cı maddəsində nəzərdə tutulan hal istisna olmaqla).

6.40 Abunə yazılışı üçün sifariş(ləri) imzalamış Müştəri tərəfindən müvafiq Müqaviləyə xitam verilməsi onun tərəfindən abunə yazılışı üçün verilmiş sifariş(lər)in ləğvinə səbəb olmur. Qeyd edilən halda Müştərinin abunə yazşılışı sifarişi İnvestisiya Şirkəti tərəfindən icra edilir (əgər icrası mümkündürsə) və Abunə yazılışı sifarişinə uyğun olaraq qiymətli kağızlar Müştərinin depo hesabına köçürülür. Bundan sonra Müştəri İnvestisiya Şirkətinə qarşı bu Standart şərtlər üzrə Müştəri üçün müəyyən edilmiş hüquqlardan istifadə edə


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

bilməz və İnvestisiya Şirkəti qarşısında hər hansı öhədiliyin icra edilməsi ilə bağlı tələb irəli sürə bilməz.

6.41 Xidmət haqqı, sifarişin icra olunması ilə bağlı xərclər, mümkün cərimələr, o cümlədən Müştərinin əməliyyatları (sifarişlər və əqdlər) üzrə öhdəlikləri istisna olmaqla, Müştəri tərəfindən İnvestisiya Şirkətinə köçürülmüş və Müştərinin xeyrinə müvafiq sifarişin icrası zamanı əldə olunmuş bütün vəsaitlər Müştərinin mülkiyyəti hesab olunur.

6.42 Xidmət üzrə İnvestisiya Şirkətinə ödənilməli olan xidmət haqqı İnvestisiya Şirkətinin tarif cədvəlinə uyğun olaraq müəyyən edilir və xidmət haqqı və sifarişin icra olunması ilə bağlı xərclər Müştəri tərəfindən İnvestisiya Şirkətinin ona təqdim etdiyi ödəniş sənədləri (hesab-faktura və s.) əsasında ödəniş sənədlərinin Müştəriyə təqdim edildiyi gündən 5 (beş) iş günü müddətində İnvestisiya Şirkətinin bank hesabına köçürülür və ya İnvestisiya Şirkəti tərəfindən Müştərinin hesabından akseptsiz qaydada silinir. Müştəri bu Standart Şərtləri və müvafiq Müqaviləni imzalamaqla onun tərəfindən İnvestisiya Şirkətinə ödənilməli olan xidmət haqqı və əlavə xərclərin onun hesabından akseptsiz qaydada silinməsinə razılıq verir.

6.43 ***İnvestisiya Şirkətinin hüquqları:***

6.43.1 Aşağıdakı hallarda Müştəriyə bu Standart Şərtlərdə və müvafiq Müqavilə əsasında Müştərinin sifarişi (sərəncamı) ilə əməliyyatların aparılmasından imtina etmək, eləcə də əməliyyatların icrasını gecikdirmək və ya təxirə salmaq:

a) İnvestisiya hesabında müştərinin sifarişini icra etməyə kifayət qədər pul vəsaiti, qiymətli kağız, törəmə maliyyə aləti və ya digər aktivlər olmadıqda;
b) Müştərinin sifarişinin icrası üçün köçürülməli olan vəsait Müştəri tərəfindən İnvestisiya Şirkətinin hesabına köçürülmədikdə:
c) Müştəri xidmət haqqının ödənilməsindən imtina etdikdə;
d) Müştəri qanunvericiliklə tələb olunan sənədlərin tərtib edilməsi qaydalarını və onların İnvestisiya Şirkətinə təqdim edilməsi müddətlərini, qaydalarını pozduqda;
e) İnvestisiya Şirkətinin təqsiri olmadan texniki qüsurlar baş verdikdə;
f) Üçüncü şəxslər, banklar (habelə, xarici banklar), o cümlədən də vasitəçi bank, müxbir bank, vəsait göndərənin/qəbul edənin bankı, kart təşkilatları, ödəniş sistemləri və İnvestisiya Şirkətinin əməkdaşlıq etdiyi digər maliyyə qurumlarından qaynaqlanan



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

səbəblərdən (onların təqsirlərinin olub-olmamasından aslılı olmayaraq) dolayı əməliyyatın icrası və xidmətin göstərilməsi qeyri-mümkün olduqda;

g) Azərbaycan Respublikası və (və ya) digər dövlətlərin səlahiyyətli orqanları, o cümlədən bank sektoru və maliyyə bazarlarında nəzarət və tənzimləyici funksiyaları həyata keçirən qurumlar, eləcə də kart təşkilatları, beynəlxalq təşkilatlar (qurumlar) və maliyyə qurumları, habelə ödəniş sistemləri tərəfindən əməliyyatın icrasını və xidmətin göstərilməsini mümkünsüz edən qərarlar qəbul edildikdə;

h) Tərəflərin iradəsindən kənar baş verən digər hallar nəticəsində, eləcə də bu Standart Şərtlərin digər müddəalarında nəzərdə tutulmuş hallarda əməliyyatın aparılması, xidmətlərin göstərilməsi mümkün olmadıqda;

i) Sifariş Qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmədikdə və ya qanunvericiliyin tələblərinə zidd olarsa;

j) Müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün olmadığı hallarda;

k) Qanunvericiliklə nəzərdə tutulan digər hallarda.

6.43.2 Bu xidmətin icrası zamanı xidmət haqqının, sifarişin icra olunması ilə bağlı xərclərin əvəzinin ödənilməsini Müştəridən tələb etmək;

6.43.3 Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatların yerinə yetirilməsi ilə bağlı verilən sifarişlərin icra edilməsi üçün Müştəridən müvafiq maliyyə vəsaitini qəbul etmək;

6.43.4 Bu Standart Şərtlərə və müvafiq Müqaviləyə xitam verildiyi halda qiymətli kağız və törəmə maliyyə alətləri ilə ticarət əməliyyatlarını dayandırmaq;

6.43.5 Qiymətli kağız və törəmə maliyyə alətlərinin alınması və satılması zamanı valyuta mübadiləsinə zərurət yarandıqda, bir valyutanın digər valyutaya qarşı alış və satış qiymətini müəyyən etmək;

6.43.6 Sifarişlərin qəbulu və icra edilməsi üzrə müəyyən edilmiş xidmət haqlarında və xidmət üzrə əməliyyatların aparılması qaydalarında qanunvericiliyin tələbləri nəzərə alınmaqla birtərəfli qaydada dəyişiklik etmək;

6.43.7 Müştərinin apardığı maliyyə əməliyyatlarının qanunvericiliyə (hüquqi aktlara) zidd olmasına dəlalət edən faktlar və ya şübhələr olduqda, bununla bağlı müştəridən və ya onun səlahiyyətli nümayəndəsindən bunun səbəblərini açıqlayan məlumatları tələb etmək



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

və məlumatlar təqdim edilənədək sifarişlərin icrasını dayandırmaq və ya sifarişlərin icrasını ləğv etmək;

6.43.8 Qanunvericiliklə, müvafiq müqavilə və bu Standart Şərtlərlə müəyyən edilmiş digər hüquqlar.

6.44 ***İnvestisiya Şirkətinin vəzifələri:***

6.44.1 Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla (repo/əks repo, girov, maliyyə girovu və s.) bağlı tələb olunan qaydada imzalanmış (və ya qəbul edilmiş) və təqdim edilmiş Müştəri sifarişlərini qəbul etmək və sifarişləri onların xüsusiyyətləri və üstünlük təşkil edən bazar şəraiti istisna olmaqla, onların təqdimolunma ardıcıllığı ilə icra etmək;

6.44.2 Müştəri sifarişlərinin qəbulu və icrasını yalnız Müştərinin və ya onun səlahiyyətli nümayəndəsinin sifarişi əsasında həyata keçirmək;

6.44.3 Müştərilərin sifarişlərinin uçotunu aparmaq;

6.44.4 Müştəri sifarişinin icra edilməsi barədə hesabatı Müştəriyə sifarişin İnvestisiya Şirkəti tərəfindən icra edilməsindən sonrakı 1 (bir) iş günündən gec olmayaraq təqdim etmək;

6.44.5 Qiymətli kağız və ya törəmə maliyyə alətinin qiyməti və sifarişin icra olunması ilə bağlı xərclər də daxil olmaqla ümumi xərclər baxımından Müştəri üçün ən yaxşı mümkün nəticəni müəyyən etmək;

6.44.6 İnvestisiya Şirkətinə Müştəri tərəfindən yazılı bildiriş təqdim edildikdə, hər hansı icra edilməmiş Sifariş(lər)i tam və ya qismən ləğv etmək. Bildirişin alınmasından sonra İnvestisiya Şirkəti tərəfindən dərhal Sifariş(lər)in və ya onun müvafiq hissəsinin dayandırmanın mümkün olması şərti ilə sifariş(lər)in yerinə yetirilməsini dərhal dayandırmaq və bu barədə 1 (bir) iş günü ərzində Müştəriyə yazılı məlumat təqdim etmək;

6.44.7 Qanunvericilikdə nəzərdə tutulmuş qaydada Müştəriyə hesabat təqdim etmək;

6.44.8 Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

6.45 ***Müştərinin hüquqları:***

6.45.1 Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı bu Standart Şərtlərin və ya müvafiq müqavilədə nəzərdə tutulduğu hallarda müvafiq müqavilənin tələblərinə uyğun sifarişlər vermək;


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

6.45.2 İnvestisiya Şirkətinə yazılı bildirişin təqdim edilməsi ilə hər hansı icra edilməmiş Sifariş(lər)i tam və ya qismən ləğv etmək. Müvafiq bildirişin İnvestisiya Şirkəti tərəfindən alınmasından sonra dərhal Sifariş(lər)in və ya onun müvafiq hissəsinin dayandırılmasının mümkün olması şərti ilə sifarişin yerinə yetirilməsinin dayandırılmasını tələb etmək;

6.45.3 Sifariş(lər)in icra vəziyyəti haqqında hesabatı sorğu əsasında İnvestisiya Şirkətindən tələb etmək;

6.45.4 Müştərilərin sifariş(lər)inin icrasının qiymət və sifarişin icra olunması ilə bağlı xərclər də daxil olmaqla ümumi xərclər baxımından ən yaxşı qiymət prinsipi əsasında həyata keçirilməsini İnvestisiya Şirkətindən tələb etmək;

6.45.5 Müqavilə, Standart Şərtlər və qanunvericiliklə müəyyən olunan öhdəliklərin vaxtında və lazımi qaydada icra olunmasını İnvestisiya Şirkətindən tələb etmək;

6.45.6 Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlar.

6.46 ***<u>Müştərinin vəzifələri:</u>***

6.46.1 Sifarişin icrasına əsaslı təsir edə biləcək dəyişikliklərin olması hallarında, İnvestisiya Şirkətini bu cür halın baş verməsi haqqında həmin hallar barədə dərhal məlumatlandırmaq; (Müştəri tərəfindən bu cür hallar barədə məlumat təqdim edilmədikdə İnvestisiya Şirkəti tərəfindən sifarişin icrası ilə bağlı xərclər və İnvestisiya Şirkətinin xidmət haqları habelə İnvestisiya Şirkətinə vurulmuş zərər Müştəri tərəfindən qarşılanır. Müştəri bu əsas üzrə məsuliyyət daşıyır.

6.46.2 İnvestisiya Şirkətini Müştəriyə məxsus olan və Sifariş(lər)in icrası və mahiyyəti ilə bağlı olan Müştəri tərəfindən bilinən və ya bilinməli olan qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə münasibətdə mövcud olan hər hansı yüklülük və üçüncü şəxslərin tələbləri haqqında məlumatlandırmaq;

6.46.3 Qiymətli kağızlar və ya törəmə maliyyə alətlərinin alınması, satılması və ya onlar üzrə digər əməliyyatların həyata keçirilməsi üzrə sifariş(lər)ini Qanunvericiliklə müəyyən edilmiş Müştəri sifarişində əks edilməli olan məlumatları əks etdirməklə və ya İnvestisiya Şirkəti tərəfindən Müştərinin müraciəti əsasında təqdim edilmiş Sifariş formasına uyğun təqdim etmək;

6.46.4 Müştərinin qiymətli kağız və törəmə maliyyə alətlərinin alınması, satılması və digər əməliyyatları üzrə sifarişləri icra edildikdə bu cür əqdlərdən irəli gələn pul öhdəliklərinin tam həcmdə və müvafiq bazarda mövcud olan hesablaşma reqlamentində müəyyən



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

edilən vaxtdan gec olmayaraq İnvestisiya Şirkətinin müəyyən etdiyi bank hesabına köçürülməsini təmin etmək;

6.46.5 Verdiyi sifarişləri ildə 1 (bir) dəfədən az olmamaqla yeniləmək;

6.46.6 İcra edilmiş sifarişə görə xidmət haqlarının və sifarişlərin icra olunması ilə bağlı xərclərin tam və vaxtında qarşılanmasını təmin etmək;

6.46.7 Əsas və genişləndirilmiş ticarət sessiyaları üzrə ticarət saatları barədə məlumatlı olmaq;

6.46.8 Qanunvericiliklə, müvafiq müqavilə və bu Standart Şərtlərlə müəyyən edilmiş digər vəzifələr.

6.47 Bu Standart Şərtlərə və müvafiq Müqaviləyə xitam verildiyi halda Müştərinin vəsaitlərinin qalığı İnvestisiya Şirkətinə və üçüncü tərəflərə Müştəri tərəfindən bu Standart Şərtlər və müvafiq Müqavilə üzrə ödənilməli olan hər hansı komissiya və digər haqlar çıxılmaqla, Müştərinin qalıq vəsaitlərin köçürülməsi üçün rekvizitləri özündə əks etdirən yazılı müraciəti alındıqdan sonra 5 (beş) iş günü ərzində İnvestisiya Şirkəti tərəfindən Müştəriyə qaytarılmalıdır (Qanunvericiliklə Müştəri vəsaitlərinin qaytarılmasının qadağan edildiyi hallar istisna olmaqla).

6.48 Müştəri öz təşəbbüsü ilə qiymətli kağızlar və törəmə maliyyə alətləri ilə əqdin bağlanmasından imtina etdiyi halda, həmin əqdin bağlanması üçün Müştəri tərəfindən İnvestisiya Şirkətinin hesabına köçürülmüş vəsait(lər) Müştərinin vəsaitlərin köçürülməsi üçün rekvizitləri özündə əks etdirən yazılı müraciətinə əsasən 5 (beş) iş günü ərzində onun cari bank hesabına köçürülür və ya Müştəri tərəfindən veriləcək digər sifarişlərin icra edilməsi məqsədilə İnvestisiya Şirkətinin hesabında saxlanılır. Qeyd edilən vəsait(lər)in Müştərinin cari bank hesabına geri qaytarıldığı hallarda müvafiq Bank tərəfindən köçürmə əməliyyatının aparılması ilə bağlı tutulan komissiya xərci Müştəri tərəfindən ödənilir.

6.49 Yerli bazarda Müştəri repo/əks repo sifarişlərini təqdim etməklə Repo Baş Razılaşması ilə tanış olduğunu və həmin Razılaşmanın müddəalarının gələcəkdə ona tətbiq edilə biləcəyini qəbul etmiş sayılır. Repo Baş Razılaşması Bakı Fond Birjası QSC, İnvestisiya şirkəti və Milli Depozit Mərkəzi arasında bağlanılır və yerli bazarda repo əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini özündə əks etdirir. Repo Baş Razılaşması ilə müəyyən edilmiş repo əməliyyatlarının aparılması


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

şərtləri Bakı Fond Birjası tərəfindən müəyyən edilir. Müştəri bu növ sifarişlər üzrə tələbləri müəyyən etmək üçün Bakı Fond Birjasına müraciət etməli və sifarişin icrası qayda və şərtlərini öncədən bilməlidir. İnvestisiya Şirkəti Müştəri tərəfindən bu qayda və şərtlərin öncədən müəyyən edilməməsi səbəbindən mümkün bütün növ ziyana görə məsuliyyət daşımır.

6.50 Xarici bazarda Müştəri repo/əks repo sifarişlərini təqdim etməklə beynəlxalq repo baş razılaşması ilə tanış olduğunu və həmin müddəalarının gələcəkdə ona təqdim edilə biləcəyini qəbul etmiş sayılır. Beynəlxalq repo baş razılaşması beynəlxalq təşkilat və ya qurumlar tərəfindən İnvestisiya Şirkətinin onu imzalaması və üzv olması ilə bağlanılır və xarici bazarda repo əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini özündə əks etdirir. Müştəri bu növ sifarişlər üzrə tələbləri müəyyən etmək üçün İnvestisiya Şirkətinə müraciət etməli və sifarişin icrası qayda və şərtləri ilə öncədən tanış olmalıdır. İnvestisiya Şirkəti Müştəri tərəfindən bu cür müraciətin edilməməsinə və bunun əsasında sifarişlər ilə bağlı qayda və şərtlərin öncədən müəyyən edilməməsi səbəbindən ziyana görə məsuliyyət daşımır.

## 7. Fərdi investorların portfelinin idarə edilməsi üzrə standart şərtlər

7.1 Əsas investisiya xidmətinə aid olan fərdi investorun portfelinin idarə edilməsi xidməti (əməliyyatı) göstərən zaman investisiya şirkəti eyni zamanda qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icra edilməsi üzrə investisiya xidmətini (əməliyyatını), habelə qiymətli kağızların hesabının idarə edilməsi, o cümlədən qiymətli kağızların və törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi, mərkəzi depozitarın üzvü qismində müştərinin qiymətli kağızlarının saxlanması xidmətlərini də göstərir.

7.2 Müştəri bu Standart Şərtləri və müvafiq Müqaviləni imzalamaqla qəbul edir ki, o, fərdi investorun portfelinin idarə edilməsi xidmətindən istifadə etdiyi halda İnvestisiya Şirkəti tərəfindən bu xidmətin həyata keçirilməsi ilə əlaqədar bu Standart Şərtlərin 7.1-ci bəndində qeyd edilmiş digər xidmətlərin də həmin xidmətlərin göstərilməsini tənzimləyən bu Standart Şərtlərin müvafiq bəndlərində öz əksini tapmış şərtlər əsasında və ya bu standart şərtlərlə tənzimlənmirsə bazar təcrübəsinə və qüvvədə olan


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

qanunvericilik aktlarına uyğun olaraq və ya əlavə müqavilə bağlanılması yolu göstərilməsinə razıdır. Həmçinin Müştəri qəbul edir ki, fərdi investorun portfelinin idarə edilməsi xidmətindən istifadə etdiyi halda İnvestisiya Şirkəti tərəfindən bu xidmətin həyata keçirilməsi ilə əlaqədar bu Standart Şərtlərin 7.1-ci bəndində qeyd edilmiş digər xidmətlərin göstərilməsi üzrə xidmət haqqları və sifarişlərin icra olunması ilə bağlı xərcləri tətbiq edə bilər. Eyni zamanda İnvestisiya Siyasətində(lərində) xüsusi xidmət haları üzrə razılaşma müəyyən edilə bilər. Bu zaman İnvestisiya Siyasəti(ləri) əsas götürüləcəkdir.

7.3 İnvestisiya şirkəti fərdi investorun portfelinin idarə edilməsi xidməti üzrə müştəri ilə müqavilə bağlamazdan əvvəl (əməliyyatların icrasına başlamazdan əvvəl) investisiya xidmətinin müştəri üçün uyğun olub-olmadığını müəyyən etmək məqsədilə müştərinin maliyyə vəziyyəti və investisiya məqsədləri barədə yazılı qaydada (kağız daşıyıcıda və ya elektron formada) ətraflı məlumat alır. Müştəri qəbul edir ki, bu xidmət üzrə yalnız bu tələbin qarşılanmasından sonra xidmət göstərilməsi mümkündür.

7.4 Müştərinin təqdim etdiyi maliyyə vəziyyəti haqqında məlumatda ən azı aşağıdakılar əks olunmalıdır:

7.4.1 *MUT Qaydalarına uyğun olaraq gəliri və gəlir mənbələri;*

7.4.2 *aktivləri, o cümlədən pul vəsaitləri, investisiyaları və daşınmaz əmlakı;*

7.4.3 *maliyyə öhdəlikləri.*

7.5 Müştərinin investisiya məqsədlərinə dair məlumatına ən azı investisiyanın müddəti və müştərinin üzərinə götürə biləcəyi riskin maksimum həcmi daxil edilməlidir.

7.6 İnvestisiya şirkəti bu Standart Şərtlərin 7.4-cü və 7.5-ci bəndlərində müəyyən edilən məlumatlar əsasında müştərini aşağıdakılar barədə 3 (üç) iş günü müddətində yazılı qaydada (kağız daşıyıcıda və ya elektron formada) məlumatlandırır:

7.6.1 *investisiya xidmətinin (əməliyyatının), qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin müştəri üçün uyğun olması barədə;*

7.6.2 *məlumatların təqdim edilməməsi səbəbindən investisiya şirkəti tərəfindən müştəriyə təklif edilən və ya müştəri tərəfindən sifariş edilən investisiya xidmətlərinin (əməliyyatlarının) və ya aktivlərin müştəri üçün uyğunluğunun qiymətləndirilməsinin mümkün olmaması barədə;*



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

7.6.3 *təqdim olunan məlumatların qiymətləndirilməsi nəticəsində müştəri tərəfindən sifariş edilən investisiya xidmətlərinin (əməliyyatlarının) və ya aktivlərin müştəri üçün uyğun olmaması barədə.*

7.7 İnvestisiya Şirkəti Müqavilənin ayrılmazı tərkib hissəsi olan Əlavəsində (İnvestisiya Siyasət(lər)ində) nəzərdə tutulmuş Müştəri tərəfindən verilən investisiya istiqamətləri çərçivəsində müştəri üçün fərdi portfel idarəçiliyi fəaliyyətini yerinə yetirir. İnvestisiya Siyasətində ən azı aşağıdakı məlumatlar əks olunur:

7.7.1 *qiymətli kağızların və/və ya törəmə maliyyə alətlərinin növləri;*

7.7.2 *qiymətli kağızların və/və ya törəmə maliyyə alətlərinin ayrı-ayrı növlərinə edilən investisiyaların maksimum məbləği və ya payı;*

7.7.3 *investisiyanın riskini müəyyən etməyə imkan verən göstəricilər.*

7.7.4 *İnvestisiya müddəti;*

7.7.5*İnvestisiyalar üzrə məhdudiyyətlər.*

7.8 Portfelin idarə edilməsi üzrə müştəri aktivləri müştəri tərəfindən həmin aktivlərin İnvestisiya Şirkətinin hesabına köçürülməsi yolu ilə idarəetməyə verilir və aktivlərin idarə edilməsi istiqamətləri İnvestisiya Siyasət(lər)i müəyyən edilir.

7.9 İnvestisiya şirkəti investisiya siyasət(lər)inə uyğun olaraq və portfel ilə bağlı yarana biləcək riskləri nəzərə almaqla qiymətli kağızlar və törəmə maliyyə alətlərinin alqı-satqısı, dəyişdirilməsi və digər əqdlər bağlayır.

7.10 Standart Şərtlərin 7.19-cu bəndində müəyən edilmiş əsas istisna olmaqla, İnvestisiya şirkəti portfelin idarə edilməsi zamanı aktivlərin bazar qiymətindən, bu mövcud olmadıqda ədalətli dəyərindən yuxarı qiymətə satın alınmasına və ya portfeldə olan aktivlərin onların bazar qiymətindən, bu mövcud olmadıqda ədalətli dəyərindən aşağı qiymətə satılmasına, həmçinin özünün və ya üçüncü tərəflərin maraqlarının təmin edilməsi məqsədi ilə aktivlərin satın alınmasına və ya satılmasına yol vermir.

7.11 İnvestisiya şirkəti fərdi investorun portfelinin idarə edilməsi xidməti (əməliyyatı) üzrə müştərilərə mütləq gəlir barədə vəd vermir və Müştərinin gəlir etməməsinə görə məsuliyyət daşımır.

7.12 İnvestisiya şirkəti fərdi investorun portfelinin idarə edilməsi xidməti (əməliyyatı) üzrə alqı-satqı əməliyyatlarını icra edərkən faktlara, məlumatlara, hesabatlara və təhlillərə



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

əsaslanır və bu materiallar ən azı fərdi investora portfelinin idarə edilməsi xidmətinin təklif edildiyi müddətdə saxlanılır.

7.13 Müştəri Müqavilənin tərkib hissəsi olan investisiya siyasət(lər)ində göstərilən şərtlər əsasında İnvestisiya Siyasətlərində göstərilən müddət ərzində İnvestisiya Şirkətinə aktivlərin ötürülməsini təmin edir.

7.14 İnvestisiya Şirkətinin müştəri aktivlərin idarə edilməsi üzrə öhdəlikləri müvafiq investisiya siyasət(lər)ində göstərilən Müştəri aktivlərinin İnvestisiya Şirkətinə ötürüldüyü tarixindən başlayır. Müştəri tərəfindən ötürülən aktivlərin dəyəri minimal razılaşdırılmış məbləğdən az olduqda İnvestisiya Siyasət(lər)i qüvvəyə minmir. İnvestisiya Şirkətinin öhdəlikləri müvafiq Müqavilənin ləğv olunması/bitməsi ilə və ya İnvestisiya Şirkəti tərəfindən xidmətlərin tamamlanması, xitamı və digər əsaslar ilə qüvvədən düşür.

7.15 Müvafiq Müqavilə qüvvədə qalmaqla İnvestisiya Siyasətləri əsasında hər bir idarəetməyə verilmiş aktivlərin idarəedilməsi üzrə İnvestisiya Şirkətinin öhdəlikləri siyasətin(lərin) ləğv olunması/bitməsi və ya İnvestisiya Şirkəti tərəfindən xidmətlərin tamamlanması, xitamı və digər əsaslar ilə qüvvədən düşə bilər.

7.16 İdarəetməyə verilən müştəri aktivlərinin növü və məbləği bu Standart Şərtlərin və müvafiq Müqavilənin ayrılmaz tərkib hissəsi olan İnvestisiya siyasət(lər)i ilə müəyyən edilir.

7.17 Müştəri aktivlərinin idarə edilməsi üzrə öhdəliklər İnvestisiya Siyasətlərində qeyd edilən müddətə və ya bu Standart şərtlərlə müəyyən edilmiş hallarda başa çatır.

7.18 Müştəri tərəfindən bu Standart Şərtlərin və müvafiq Müqavilənin əlavəsi olan İnvestisiya siyasət(lər)i ilə məyyən edilmiş idarəetməyə verilməli olan aktivlərin həmin siyasət(lər)də qeyd edilən həcmdə və müddətdə İnvestisiya Şirkətinin hesabına köçürülmədiyi təqdirdə İnvetisiya Şirkəti bu xidmət üzrə öz üzərinə götürdüyü portfelin idarə edilməsi ilə bağlı öhdəliklərin icra edilməməsinə görə məsuliyyət daşımır.

7.19 Müştəri investisiya siyasəti ilə müəyyən etdiyi qiymətli kağız və ya törəmə maliyyə alətləri üzrə İnvestisiya Şirkəti vasitəçiliyi ilə alınmış və ya satılmış qiymətli kağız və ya törəmə maliyyə alətlərinin (və ya baza aktivinin)  bazar qiymətinin dəyişməsi nəticəsində ona dəymiş zərərə və ya itirilmiş gəlirə görə məsuliyyəti yalnız özü daşıyır;

7.20 Xidmət üzrə İnvestisiya Şirkətinə ödənilməli olan xidmət haqqı İnvestisiya Şirkətinin İnvestisiya Siyasətlərinə uyğun olaraq müəyyən edilir və xidmət haqqı və sifarişin icrası



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

ilə bağlı əlavə xərclər (öncədən İnvestisiya Şirkəti tərəfindən akseptsiz qaydada silindiyi hallar istisna olmaqla) Müştəri tərəfindən İnvestisiya Şirkətinin ona təqdim etdiyi ödəniş sənədləri (hesab-faktura,e-qaimə) əsasında ödəniş sənədlərinin Müştəriyə təqdim edildiyi gündən 5 (beş) iş günü müddətində İnvestisiya Şirkətinin bank hesabına köçürülür və ya İnvestisiya Şirkəti tərəfindən Müştərinin hesabından akseptsiz qaydada silinir. Müştəri müvafiq Müqaviləni imzalamaqla onun tərəfindən İnvestisiya Şirkətinə ödənilməli olan xidmət haqqı və sifarişlərin icra olunması ilə bağlı xərclərin bu bəndin tələblərinə uyğun olaraq ödənilmədiyi təqdirdə həmin xidmət haqqı və əlavə xərclərin onun hesabından (aktivlərindən) akseptsiz qaydada silinməsinə razılıq verir.

7.21 Müvafiq Müqavilənin xitam olunması halında Müştərinin vəsaitlərinin qalığı İnvestisiya Şirkətinin xidmət haqları və sifarişin icrası ilə olunması ilə bağlı xərclər çıxılmaqla, Müştəriyə İnvestisiya Şirkəti tərəfindən Müştərinin qalıq vəsaitlərin köçürülməsi üçün rekvizitləri özündə əks etdirən yazılı müraciəti alındıqdan sonra tərəflər arasında razılaşıdırlmış müddət ərzində qaytarılmalıdır (Qanunvericiliklə Müştəri vəsaitlərinin qaytarılmasının qadağan edildiyi hallar istisna olmaqla). Tərəflər arasında razılıq əldə edilməzsə Müştərinin müraciəti bu Standart Şərtlərin 7.25.5-ci yarımbəndi üzrə müştərinin yazılı sifarişi hesab edilmiş olacaq. Müddətin sonunda müştəri aktivləri müştəriyə təqdim ediləcəkdir.

7.22 İdarəetməyə verilən müştəri aktivləri İnvestisiya siyasət(lər)ində qeyd edilən müddət ərzində İnvestisiya Şirkəti tərəfindən idarə edilir və həmin müddətin sonunda həmin aktivlər Müştərinin seçimi əsasında aşağıdakı qaydada həyata keçirilir:

7.22.1 İdarəetməyə verilən aktiv (pul vəsaiti) hesabına əldə edilən qiymətli kağızlar və ya törəmə maliyyə alətləri Müştərinin sifarişlərin qəbulu və icrası məqsədilə müştərinin adına açılmış olan hesabına köçürülür.

7.22.2 İdarəetməyə verilən aktiv (pul vəsaiti) hesabına əldə edilən qiymətli kağızlar və ya törəmə maliyyə alətləri satılaraq əldə edilən vəsait müvafiq müqavilədə qeyd edilən Azərbaycan Respublikasında bank fəaliyyətinin göstərilməsi üzrə müvafiq lisenziyaya malik olan bankda müştərinin adına açılmış olan bank hesabına köçürülür.

7.23 ***İnvestisiya Şirkətinin hüquqları:***



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

7.23.1 Qanunvericiliyə zidd olmaması şərtilə, Müştərinin aktivlərini investisiya siyasətlərinə uyğun olaraq qiymətli kağızlar və törəmə maliyyə alətlərinin alqı-satqısı, dəyişdirilməsi və digər əqdlər bağlanılması (idarə edilməsi) məqsədilə idarə etmək;

7.23.2 Portfelin idarə edilməsi investisiya xidmətinin müştəri üçün uyğun olub-olmadığını müəyyən etmək məqsədilə müştərinin maliyyə vəziyyəti və investisiya məqsədləri barədə yazılı qaydada (kağız daşıyıcıda və ya elektron formada) müştəridən ətraflı məlumat almaq;

7.23.3 İnvestisiya Siyasət(lər)ində müəyyən edilmiş istiqamətlər üzrə əqdlərin bağlanması üçün nəzərdə tutulmuş vəsaitin İnvestisiya Siyasətlərinə uyğun olaraq İnvestisiya Şirkətinin hesabına köçürülməsini Müştəridən tələb etmək;

7.23.4 İnvestisiya Siyasət(lər)inə uyğun olaraq icra edilmiş əməliyyatlara görə xidmət haqların, sifarişlərin icra olunması ilə bağlı xərclərin, portfelin idarə edilməsinə görə İnvestisiya Siyasətində müəyyən edilmiş xidmət haqqının xidmət üzrə bu Standart Şərtlər və müvafiq Müqavilə ilə nəzərdə tutulan qaydada, habelə investisiya siyasətlərində müəyyən edilmiş qaydada tam və vaxtında qarşılanmasını Müştəridən tələb etmək;

7.23.5 Heç bir məhdudiyyət olmadan İnvestisiya Siyasət(lər)inə uyğun olaraq bu Standart Şərtlərin və müvafiq Müqavilənin məqsədlərini reallaşdırmaq üçün vaxtaşırı olaraq zəruri olan və ya zəruri ola biləcək addımları atmaq;

7.23.6 Müştəri tərəfindən İnvestisiya Şirkətinə aktivlər İnvestisiya Siyasətində(lərində) müəyyən edilmiş məbləğdə və tarixdə ötürülmədiyi halda aktivlərin idarə edilməsindən imtina etmək;

7.23.7 İnvestisiya Şirkəti tərəfindən bu Standarat Şərtlərin 7.4-cü və 7.5-ci bəndlərində qeyd edilən, müştəri tərəfindən təqdim edilən məlumatların təhlili əsasında bu xidmətin Müştəriyə uyğun olmadığı müəyyən edildikdə xidmətin göstərilməsindən imtina etmək;

7.23.8 Müştəri tərəfindən Bu Standart Şərtlərin, müvafiq müqavilənin və ya İnvestisiya Siyasətində (lərində) müəyyən edilmiş qaydada İnvestisiya Şirkətinə ödəniləcək xidmət haqqı və sifarişin icra olunması ilə bağlı xərcləri və ya portfelin idarə edilməsi üzrə xidmət haqqını müştəri aktivlərindən akseptsiz qaydada tutmaq;

7.23.9 Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlar.

7.24 ***<u>İnvestisiya Şirkətinin vəzifələri:</u>***

7.24.1 Qanunvericiliyə zidd olmaması şərtilə İnvestisiya Siyasət(lər)i ilə idarəetməyə verilən müştəri aktivlərini İnvestisiya Siyasət(lər)inə uyğun olaraq Müştəri tərəfindən müəyyən edilmiş istiqamətlər üzrə idarə etmək;

7.24.2 Müştəri ilə müqavilə bağlamazdan əvvəl bu Standart Şərtlərin 7.4-cü və 7.5-ci bəndlərində müəyyən edilən məlumatlar əsasında bu investisiya xidmətinin Müştəri üçün uyğun olduğunu yoxlamaq və yoxlamanın nəticəsi barədə Müştərini məlumatlandırmaq;

7.24.3 Standart Şərtlərin 7.19-cu bəndində müəyən edilmiş əsas istisna olmaqla, portfelin idarə edilməsi zamanı aktivlərin bazar qiymətindən, bu mövcud olmadıqda ədalətli dəyərindən yuxarı qiymətə satın alınmasına və ya portfeldə olan aktivlərin onların bazar qiymətindən, bu mövcud olmadıqda ədalətli dəyərindən aşağı qiymətə satılmasına, həmçinin özünün və ya üçüncü tərəflərin maraqlarının təmin edilməsi məqsədi ilə aktivlərin satın alınmasına və ya satılmasına yol verməmək;

7.24.4 Qanunvericilikdə nəzərdə tutulmuş qaydada Müştəriyə hesabat təqdim etmək;

7.24.5 Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

7.25 ***<u>Müştərinin vəzifələri:</u>***

7.25.1 İnvestisiya Siyasət(lər)inə uyğun olaraq qiymətli kağızlar və törəmə maliyyə alətlərinin alqı-satqısı, dəyişdirilməsi və digər əqdlər bağlanılması (idarə edilməsi) məqsədilə İnvestisiya Siyasət(lər)ində müəyyən edilmiş məbləğdə aktivləri İnvestisiya siyasətlərində qeyd edilmiş tarixdə İnvestisiya Şirkətinə ötürmək;

7.25.2 İnvestisiya Şirkəti tərəfindən bu xidmətin Müştəri üçün uyğunluğunun yoxlanılması məqsədilə bu Standrat şərtlərin 7.4-cü və 7.5-ci bəndlərində qeyd edilən məlumatları İnvestisiya Şirkətinə təqdim etmək;

7.25.3 İnvestisiya Şirkətini Müştəriyə məxsus olan və əməliyyatların mahiyyəti ilə bağlı olan Müştəri tərəfindən bilinən və ya bilinməli olan qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə münasibətdə mövcud olan hər hansı yüklülük və üçüncü şəxslərin tələbləri haqqında məlumatlandırmaq;

7.25.4 İnvestisiya Siyasət(lər)inə uyğun olaraq icra edilmiş əməliyyatlara görə xidmət haqlarının, xidmətin göstərilməsi ilə bağlı əlavə xərclərin, İnvestisiya Siyasətinə(lərinə) uyğun olaraq idarəetmə üzrə xidmət haqlarını İnvestisiya Şirkəti tərəfindən təqdim edilən ödəniş sənədləri (hesab-faktura, və.s) əsasında ödəniş sənədlərinin təqdim edildiyi



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

gündən 5 (beş) iş günü müddətində İnvesitisiya Şirkətinin bank hesabına köçürülməsini təmin etmək;

7.25.5 İnvestisiya Siyasətlərində xüsusi hal nəzərdə tutulmadığı halda idarəetməyə verilmiş aktivin idarəetmədən geri götürülməsi barədə ən azı 60 iş günü öncədən məlumat vermək;

7.25.6 Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

7.26 ***Müştərinin hüquqları:***

7.26.1 İnvestisiya Siyasət(lər)inə uyğun olaraq idarəetməyə verdiyi aktivlərinin həmin Siyasətlərdə müəyyən etdiyi istiqamətlər üzrə idarə edilməsini İnvestisiya Şirkətindən tələb etmək (bu Standart Şərtlərin və müvafiq Müqavilənin tələbləri nəzərə alınmaqla);

7.26.2 İnvestisiya Şirkəti tərəfindən bu xidmət üzrə təqdim edilən yarımillik hesabatın rüblük təqdim edilməsi üçün İnvestisiya Şirkətinə sorğu vermək;

7.26.3 İnvestisiya Şirkətindən investisiya xidmət(lər)inə (əməliyyatlarına) dair məlumatlar əldə etmək;

7.26.4 Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlar.

## 8. İnvestisiya məsləhətlərinin verilməsi üzrə standart şərtlər

8.1 İnvestisiya məsləhəti Müştərinin yazılı şəkildə (elektron və ya kağız daşıyıcıda) sifarişi (müraciəti) əsasında qiymətli kağızın və ya törəmə maliyyə alətinin alınması, satılması, abunə yazılışı, dəyişdirilməsi, geri alınması, saxlanılması və anderraytinqi və ya onunla bağlı hüquqların həyata keçirilib-keçirilməməsi ilə əlaqədar investisiya şirkətinin müvafiq ixtisas şəhadətnaməsinə malik olan əməkdaşı tərəfindən yazılı şəkildə (elektron platforma vasitəsilə, elektron poçt vasitəsilə və ya kağız daşıyıcıda) verilir.

8.2 İnvestisiya şirkəti investisiya məsləhətlərinin verilməsi xidməti üzrə müştəri ilə müqavilə bağlamazdan əvvəl investisiya xidmətinin müştəri üçün uyğun olub-olmadığını müəyyən etmək məqsədilə müştərinin maliyyə vəziyyəti və investisiya məqsədləri barədə yazılı qaydada (kağız daşıyıcıda və ya elektron formada) ətraflı məlumat alır. Müştəri bu Standart Şərtləri və müvafiq Müqaviləni imzalamaqla qəbul edir ki, investisiya məsləhətinin verilməsi üçün onun tərəfindən İnvestisiya Şirkətinə təqdim edilən məlumat və sənədlərin düzgünlüyünə görə məsuliyyət daşıyır. Müştəri qəbul edir

ki, bu xidmət üzrə yalnız bu tələbin qarşılanmasından sonra xidmət göstərilməsi mümkündür.

8.3 Müştərinin təqdim etdiyi maliyyə vəziyyəti haqqında məlumatda aşağıdakılar əks olunmalıdır:

8.3.1 *MUT Qaydalarına uyğun olaraq gəliri və gəlir mənbələri;*

8.3.2 *aktivləri, o cümlədən pul vəsaitləri, investisiyaları və daşınmaz əmlakı;*

8.3.3 *maliyyə öhdəlikləri.*

8.4 Müştərinin investisiya məqsədlərinə dair məlumatına ən azı investisiyanın müddəti və müştərinin üzərinə götürə biləcəyi riskin maksimum həcmi daxil edilməlidir.

8.5 İnvestisiya şirkəti bu Standart Şərtlərin 8.3-cü və 8.4-cü bəndlərində müəyyən edilən məlumatlar əsasında müştərini aşağıdakılar barədə 3 (üç) iş günü müddətində yazılı qaydada (kağız daşıyıcıda və ya elektron formada) məlumatlandırır:

8.5.1*investisiya xidmətinin (əməliyyatının), qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin müştəri üçün uyğun olması barədə;*

8.5.2*məlumatların təqdim edilməməsi səbəbindən investisiya şirkəti tərəfindən müştəriyə təklif edilən və ya müştəri tərəfindən sifariş edilən investisiya xidmətlərinin (əməliyyatlarının) və ya aktivlərin müştəri üçün uyğunluğunun qiymətləndirilməsinin mümkün olmaması barədə;*

8.5.3*təqdim olunan məlumatların qiymətləndirilməsi nəticəsində müştəri tərəfindən sifariş edilən investisiya xidmətlərinin (əməliyyatlarının) və ya aktivlərin müştəri üçün uyğun olmaması barədə.*

8.6 İnvestisiya məsləhətlərinin verilməsi zamanı investisiya şirkəti aşağıdakı tələbləri yerinə yetirir:

8.6.1*investisiya məsləhətləri etibarlı faktlara, məlumatlara, hesabatlara və təhlillərə əsaslanır;*

8.6.2*qiymətli kağızların kütləvi təklifi ilə bağlı investisiya məsləhətinin hazırlanması zamanı həmin qiymətli kağızların emissiya prospekti və ya informasiya memorandumunda qeyd edilən məlumatlardan istifadə edir;*

8.6.3*investisiya məsləhətlərində əks olunan rəy, təhlil, proqnoz, qiymət hədəfləri və tövsiyələr obyektiv şəkildə hazırlanır;*

8.6.4*investisiya məsləhətlərində mütləq gəlirə dair vəd və ya təminat verilmir;*



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

8.6.5*investisiya məsləhətində çaşdırıcı, yayındırıcı, səhv və ya həqiqəti əks etdirməyən məlumatlardan və ifadələrdən istifadə edilmir;*

8.6.6*investisiya məsləhətinin nəticələri investora təqdim edilməzdən əvvəl investisiya şirkəti tərəfindən özünün və ya üçüncü şəxsin mənafeyi üçün istifadə edilmir.*

8.7 İnvestisiya şirkəti tərəfindən investisiya məsləhəti verilən zaman müştəri ən azı aşağıdakı məlumatlarla təmin olunur:

8.7.1*investisiya şirkətinin adı və ünvanı;*

8.7.2*investisiya məsləhətini verən şəxsin adı və soyadı, vəzifəsi, ixtisas şəhadətnaməsinin seriya nömrəsi, verilmə tarixi;*

8.7.3*investisiya məsləhətinin hazırlanmasında istifadə edilmiş məlumat mənbələri, investisiya strategiyaları və təhlil metodları barədə məlumat;*

8.7.4*investisiya məsləhətinin verilməsi tarixi və vaxtı barədə məlumat;*

8.7.5*investisiya məsləhətinin məzmunu;*

8.7.6*mümkün maraqlar münaqişəsi barədə məlumat.*

8.8 İnvestisiya məsləhətinin verilməsi xidmətinin nəticəsi olaraq Müştəriyə verilmiş investisiya məsləhətinin nəticələrinə görə İnvestisiya Şirkəti məsuliyyət daşımır. Verilmiş investisiya məsləhətləri əsas götürülməklə həyata keçirilmiş hərəkət və hərəkətsizliklərin nəticəsinə görə Müştəri birbaşa özü məsuliyyət daşıyır.

8.9 İnvestisiya Məsləhəti Müştərinin sifarişi əsasında təqdim edilir və Müştəri sifarişində ən azı aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

8.9.1 *Barəsində məsləhət alınan maliyyə alətinin emitenti (olduqda), növü və qeydiyyat nömrəsi;*

8.9.2 *Barəsində məsləhət alınan maliyyə aləti ilə nəzərdə tutulan əməliyyatın təsviri (maliyyə alətinin alınması, satılması (o cümlədən qısa satılması), saxlanılması, abunə yazılışı, dəyişdirilməsi, geri alınması, anderraytinqi və s.);*

8.9.3 *Məsləhətin verilməsinin son tarixi*.

8.10 İnvestisiya məsləhəti üzrə Müştəri tərəfindən İnvestisiya Şirkətinə ödəniləcək xidmət haqları İnvestisiya Şirkəti tərəfindən verilən məsləhətə uyğun olaraq müəyyən edilir. İnvestisiya məsləhətinin verilməsi ilə əlaqədar xidmət haqqı İnvestisiya Şirkəti tərəfindən təqdim edilən ödəniş sənədləri (hesab-faktura və.s) əsasında ödəniş sənədlərinin



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

Müştəriyə təqdim edildiyi gündən 5 (beş) iş günü ərzində Müştəri tərəfindən İnvestisiya Şirkətinin bank hesabına köçürülür.

8.11 ***İnvestisiya Şirkətinin hüquqları:***

8.11.1 Məsləhətin nəticəsindən yəni, müştərinin bu məsləhət əsasında gəlir əldə edib-etməməsindən asılı olmayaraq İnvestisiya məsləhəti xidmətinin göstərilməsi ilə əlaqədar tarif cədvəli ilə müəyyən edilmiş xidmət haqqı müştəridən tələb etmək;

8.11.2 İnvestisiya Şirkəti tərəfindən bu xidmətin Müştəriyə uyğun olmadığı müəyyən edildikdə xidmətin göstərilməsindən imtina etmək;

8.11.3 Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlar.

8.12 ***İnvestisiya Şirkətinin vəzifələri:***

8.12.1 Müştəri ilə müqavilə bağlamazdan əvvəl bu Standart Şərtlərin 8.3-cü və 8.4-cü bəndlərində müəyyən edilən məlumatlar əsasında bu investisiya xidmətinin Müştəri üçün uyğun olduğunu yoxlamaq və yoxlamanın nəticəsi barədə Müştərini məlumatlandırmaq;

8.12.2 Sifariş aldıqda, bu Standart Şərtlər ilə nəzərdə tutulmuş qaydada Müştəriyə investisiya məsləhəti vermək;

8.12.3 Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

8.13 ***Müştərinin hüquqları:***

8.13.1 İnvestisiya məsləhətinin verilməsi barədə İnvestisiya Şirkətinə sifariş (müraciət) vermək;

8.13.2 Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlar.

8.14 ***Müştərinin vəzifələri:***

8.14.1 Məsləhətin nəticəsindən yəni, onun bu məsləhət əsasında gəlir əldə edib-etməməsindən asılı olmayaraq İnvestisiya məsləhəti xidmətinin göstərilməsi ilə əlaqədar tarif cədvəli ilə müəyyən edilmiş xidmət haqqı İnvestisiya Şirkətinə ödəmək;

8.14.2 İnvestisiya Şirkəti tərəfindən təqdim edilən ödəniş sənədləri (hesab-faktura və.s) əsasında ödəniş sənədlərinin təqdim edildiyi gündən 5 (beş) iş günü ərzində İnvestisiya məsləhətinin verilməsi ilə əlaqədar xidmət haqqı İnvestisiya Şirkətinin bank hesabına köçürmək.

8.14.3 İnvestisiya məsləhətinin verilməsi üçün İnvestisiya Şirkəti tərəfindən tələb edilən məlumat və sənədləri tam, düzgün, vaxtında və ətraflı şəkildə İnvestisiya Şirkətinə təqdim etmək;



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

8.14.4 İnvestisiya Şirkəti tərəfindən verilən investisiya məsləhətinə uyğun olaraq qəbul etdiyi investisiya qərarlarına görə təkbaşına məsuliyyət daşımaq;

8.14.5 Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

## 9. Marja ticarəti üzrə standart şərtlər

9.1 Bu Standart şərtlərlə müəyyən olunmuş marja ticarəti şərtləri Müştəriyə xarici valyutalarda və digər ticarət alətləri (aktivləri) ilə üzrə marja ticarəti xidmətlərinin (A modeli üzrə) göstərilməsini tənzimləyir.

9.2 İnvestisiya Şirkəti qiymətli kağızlar, fərq müqavilələri və digər maliyyə alətləri ilə marja ticarətini təşkil edir;

9.3 İnvestisiya Şirkəti müştəriyə marja ticarətini müvafiq müqavilə qüvvəyə mindiyi andan təqdim edir;

9.4 Müştəri peşəkar investor kimi təsnifləşdirilə bilinirsə və bu Standart Şərtlərə uyğun olaraq marja ticarəti xidmətini almaq istəyirsə bu barədə İnvestisiya Şirkətinə müraciət edir;

9.5 Müştəri aşağıdakı tədbirlər icra edildikdən sonra ticarətə başlayır:

9.6.1. "Marja ticarəti üzrə risk məlumatlandırma sənədi" ilə tanış olur və imzası ilə təsdiq edir. Müştəri bu Standart şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla bu Standart Şərtlərdə qeyd olunan marja ticarəti üzrə risk məlumatlandırma sənədi ilə tanış olmuş hesab edilir;

9.6.2. Real bazar dəyərləri ilə işləyən təlim (demo) hesabında ən azı 5 (beş) iş günü olmaqla ən azı 30 (otuz) ticarət əməliyyatı aparır və ya belə ticarəti apardığı haqqında sənəd təqdim edir.

9.6 Müştərinin daha əvvəl marja ticarəti ilə bağlı öz vəsaitləri ilə aparılmaqla təcrübəsi varsa bunu göstərən müvafiq sənədləri (marja hesabından çıxarış) İnvestisiya Şirkətinə təqdim edir;

9.7 İnvestisiya Şirkəti müştəriləri üçün hesablar açır, onları bağlayır və marja çağırışını həyata keçirir;

9.8 Müştəriyə bu Standart Şərtlər üzrə göstərilən xidmətlə bağlı maliyyə aktivlərinin qiymətləri, investisiya şirkəti tərəfindən müştəri sifarişləri, qlobal bazar qiymətləri,



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

əməkdaşlıq etdiyi üçüncü tərəflər, fundamental iqtisadi şəraitin təhlili və s. komponentlərin nəticəsi olaraq formalaşdırılır və müştəriyə təqdim olunur

9.9 Marja ticarəti xidmətinin göstərilməsi ilə bağlı müştəri ilə ünsiyyətdə olan investisiya şirkətinin əməkdaşlarının bazar haqqında verdiyi məlumatlar, qiymət gözləntiləri, volatillik ehtimalları və digər məlumatlar heç bir halda investisiya məsləhəti sayılmır, gələcək ilə bağlı mütləq gəlir və ya zərərə qarşı təminat barədə vədlər kimi anlaşılmamalıdır.

9.10 Müştəri müvafiq müqavilə üzrə bu Standart Şərtlərə uyğun investisya şirkətindən marja ticarəti xidmətini alır;

9.11 Müştəri heç bir halda İnvestisiya Şirkətinin işçisindən, əməkdaşından və ya peşəkar münasibətdə olduğu üçüncü şəxslərdən digər xidmətləri almamalıdır, buna səy göstərməməməlidir, bununla əlaqəli təklifləri qəbul etməməlidir;

9.12 Müştərinin İnvestisiya Şirkətinin işçiləri, əməkdaşları və digər peşəkar münasibətdə olduğu üçüncü şəxslərdən digər xidmətlər aldıqda və ya almağa çalışdıqda İnvestisiya Şirkəti bu hal ilə əlaqədar hesab üzrə bütün sifarişləri, ticarət əməliyyatlarının və digər hərəkətlərin nəticələrini ləğv etməyə hüququ vardır.

9.13 Müştəri İnvestisiya Şirkətinə sifarişləri yalnız İnvestisiya Şirkətinin ticarət platforması üzərindən verir;

9.14 Müştəri sifarişləri İnvestisiya Şirkətinin ona verdiyi müvafiq ticarət platforması üzərindən verir;

9.15 İnvestisiya Şirkəti bir Müştərisinə aid giriş adı üzərindən verilən bütün sifarişləri müvafiq Müştərinin sifarişləri olaraq qəbul və icra edir. Müştəri onun giriş adı ilə verilmiş bütün sifarişlərə, hərəkətlərə və ya hərəkətsizliklərə görə cavabdehdir;

9.16 Müştəri hesab məlumatlarını itirdikdə və ya onun icazəsi olmadan və (və ya) bu Standart Şərtlərlə müəyyən edilən hesablaşma qaydasına uyğun olmayan şəkildə onun hesabı üzrə əməliyyatların olduğundan şübhələndikdə bu barədə dərhal İnvestisiya Şirkətinə məlumat verməlidir. Müştəri belə məlumatı İnvestisiya Şirkətinə vermədiyi halda bununla bağlı bütün məsuliyyət Müştəriyə aiddir, İnvestisiya Şirkəti məsuliyyət daşımır və müştəri hesabı üzrə bütün sifarişləri, açıq və bağlı mövqeləri və onların nəticələrini ticarət əməliyyatlarının və digər hərəkətlərin nəticələrini ləğv etməyə hüququ vardır;

9.17 İnvestisiya Şirkəti Müştəridən sifarişləri proqram təminatı üzərindən internet vasitəsi ilə alır;

9.18 İnvestisiya Şirkətinin sifarişləri qəbul etdiyi ticarət platforması internet səhifə, kompüter proqramı və mobil proqramı üzərindən təşkil olunur;

9.19 Müştəri sifariş müddətini öncədən təyin etmədikdə, sifariş sifarişin ləğvi tarixinədək və ya müqaviləyə xitam verilənədək qüvvədə qalır;

9.20 Müştəri maliyyə aləti üzrə sifariş verdikdə, sifariş qiymətini və bu maliyyə aləti üzrə bütün ticarət və digər şərtləri qəbul etmiş hesab olunur;

9.21 Müştəri Investisiya Şirkətinə aşağıdakı növ sifarişləri verir:

*9.21.1. Bazar qiymətli sifariş (market order) – müştərinin İnvestisiya Şirkətinin təqdim etdiyi cari qiymət ilə verdiyi sifariş;*

*9.21.2. Alış limit sifarişi (buy limit) – müştərinin cari qiymətdən aşağı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan alış sifarişi;*

*9.21.3. Satış limit sifarişi (sell limit) – müştərinin cari qiymətdən yuxarı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan satış sifarişi;*

*9.21.4. Alış stop sifarişi (buy stop) – müştərinin cari qiymətdən yuxarı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan alış sifarişi;*

*9.21.5. Satış stop sifarişi (sell stop) – müştərinin cari qiymətdən aşağı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan satış sifarişi;*

*9.21.6. Təqib stopsifarişi (trailing stop) – uzun mövqedə müştərinin alış qiymətindən yuxarıda, cari bazar qiymətindən aşağıda olan, qısa mövqedəisə müştərinin satış qiymətindən aşağıda, cari bazar qiymətindən yuxarıda olan qiymətlə icra olunan sifariş;*

*9.21.7. Gəliri götür sifarişi (take profit) – uzun mövqedə cari qiymətdən yuxarıda, qısa mövqedə isə cari qiymətdən aşağıda olan, müştəri tərəfindən müəyyən olunmuş limit qiymətinə çatdıqdan sonra cari qiymət ilə icra olunan sifariş;*

*9.21.8. Zərəri dayandır sifarişi (stop loss) – uzun mövqedə cari qiymətdən aşağıda, qısa mövqedə isə cari qiymətdən yuxarıda olan, müştəri tərəfindən müəyyən olunmuş limit qiymətinə çatdıqdan sonra cari qiymət ilə icra olunan sifariş.*

9.22 Müştəri istənilən zaman, öz qərarlarına müvafiq olaraq bu Standart Şərtlərin 9.21.1. – 9.21.5. bəndlərində göstərilən sifarişlərlə ticarət əməliyyatına başlaya, 9.21.6. – 9.21.8. bəndlərdə göstərilmiş sifarişlərlə isə bağlaya bilər;

9.23 Müştəri tərəfindən yazılı məlumatlandırma olmadığı təqdirdə qismən icra edilmiş və ya icra edilməmiş sifarişin icrası üzrə İnvestisiya Şirkəti məsuliyyət daşımır;

9.24 Fərqli ticarət platformalarının xüsusiyyətlərinə uyğun olaraq Müştərinin eyni fərq müqaviləsi üzrə əks mövqe ticarət əməliyyatı həmin müqavilə üzrə mövqeyini müvafiq həcmdə bağlaya bilər;

9.25 Müştərinin mövqe açmaq üçün Standart Şərtlərdə müəyyən olunmuş kredit həddi nisbətinə uyğun təminat marjası onun hesabında dondurulur;

9.26 İnvestisiya Şirkətinin Müştəriyə təqdim etdiyi ticarət platformasında göstərilən qiymətlər mümkün ən kiçik həcm üzrə sifariş qiymətidir. Daha iri həcmlər üzrə qiymət platformada əks etdirilmir;

9.27 Müştərinin növbəti mövqe açmaq üçün hesablanan təminat marjası, sərbəst təminat marjası üzərindən hesablanır;

9.28 Müştərinin eyni fərq müqaviləsi üzrə əks mövqe ticarət əməliyyatı üçün sərbəst təminat marjası və marja səviyyəsi üzrə tələb, spred, minimum və maksimum sifariş həcmi, sifarişlərin qəbulu vaxtı, minimum qiymət dəyişikliyi həddi, standard sifariş həcminin dəyəri fərqli ticarət platformalarının xüsusiyyətləri, baza aktivi üzrə qlobal bazar dəyişiklikləri və s. amillərlə bağlı fərqli səviyyələrdə tətbiq oluna bilər;

9.29 İnvestisiya Şirkəti, qiyməti baza aktivi olan fyuçers müqaviləsinin qiyməti əsasında formalaşan fərq müqavilələri üzrə müvafiq fyuçers müqaviləsinin son ticarət tarixində müştərinin açıq mövqelərini məcburi bağlamamaq məqsədi ilə növbəti qiyməti növbəti tarixli fyuçersin cari qiymətinə uyğun müəyyənləşdirir. Müvafiq qiymət fərqi fərq müqaviləsi roloveri olaraq Müştərinin hesabına tətbiq edilir. Müştəri fərq müqaviləsi roloverinin hesabına tətbiq edilməsini istəmədikdə mövqeni bağlamalıdır;

9.30 İnvestisiya Şirkətinin fərq müqaviləsi üzrə müştərilərinə təqdim etdiyi kredit həddinin maksimum həcmi müvafiq hüquqi normativ aktların tələblərinə görə müəyyən edilir və ona uyğun dəyişdirilə bilər;

9.31 İnstitutsional investorlara və peşəkar investorlara İnvestisiya Şirkəti tərəfindən verilən kredit həddinin maksimal həcmi müvafiq hüquqi normativ aktların tələblərinə görə daha yuxarı həddə müəyyən oluna və dəyişdirilə bilər;

9.32 Müştərinin hesabı üzrə marja səviyyəsi 100% olduqda İnvestisiya Şirkəti Müştəriyə marja çağırışı edir. Marja çağırışı Müştərinin müvafiq müqavilənin və bu Standart Şərtlərin tərkib hissəsi olan müştəri məlumatlarında (müştəri anketində) göstərilən mobil



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

nömrəsinə sms vasitəsi ilə, (və ya) e-poçt ünvanına və (və ya) ticarət platforması üzərindən göndərilir;

9.33 Müştəri hesabı üzrə mövqelərinin məcburi bağlanması (stop out) marja səviyyəsi 20% olduqda İnvestisiya Şirkəti tərəfindən həcm və ya zərər üzrə iridən kiçiyə olmaqla müvafiq ardıcıllıqla aparılır;

9.34 Marja çağırışı zamanı Müştəri öz hesabına əlavə pul vəsaiti mədaxil edə və ya açıq mövqelərini bağlamaqla risklərini idarə edə bilər;

9.35 İnvestisiya Şirkəti bu Standart Şərtlərin müvafiq bəndlərində göstərilmiş həddi müştəriyə bildirməklə dəyişdirə bilər;

9.36 İnvestisiya Şirkətinin müştəri mövqelərini bağlaması nəticəsində Müştərinin sərbəst təminat marjası onun bu Standart Şərtlərin bəndində göstərilmiş həddən fərqli ola bilər;

9.37 İnvestisiya Şirkəti Müştərinin kredit həddini azalda və bu Standart Şərtlərdə göstərilmiş və qanunvericilik ilə müəyyən olunmuş həddən çox olmamaq şərti ilə artıra bilər;

9.38 Maliyyə alətləri üzrə qiymətlərin yüksək volatilliklə dəyişməsi səbəbindən müştəri sahib olduğu pul vəsaitindən daha artıq zərərə məruz qaldıqda İnvestisiya Şirkəti yaranan zərəri Müştəridən tələb etmir.

9.39 Müştəri sifarişləri heç bir halda İnvestisiya Şirkətindəki hesabda eyni və ya fərqli şirkətlərdən, eyni şirkətdə eyni və ya fərqli müştərilərin adına olan hesablardan, eləcə də eyni və ya fərqli hesablar vasitəsi ilə İnvestisiya Şirkətinin Müştəriyə verdiyi səmərəli ticarət şərtlərini, platformada yaranmış texniki nasazlıqları, qiymət ardıcıllığındakı boşluqları və s. digər bu kimi qeyri-adi halları sui-istifadə etməklə maliyyə alətinin təhlilinə əsaslanmayan tək tərəfli və ya əks mövqelər açmaq üçün verməməlidir. İnvestisiya Şirkəti bu halları aşkarladıqda Müştərinin belə mövqelər üzrə nəticələrini ləğv edə və ya müştəridən tələb edə bilər;

9.40 İnvestisiya Şirkəti Müştəriyə səmərəli ticarət şərtlərini, o cümlədən svop xərcinin hesablanmamasını aktiv ticarəti təşviq etmək üçün təqdim edə bilər. Belə ticarət şərtlərinə sahib Müştəri bu şərtləri passiv faiz gəliri əldə etmək üçün istifadə etməməlidir. İnvestisiya Şirkəti təqdim etdiyi səmərəli ticarət şərtlərinin aktiv ticarət üçün istifadə edilmədiyini



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

müəyyən etdikdə belə şərtlərin verildiyi tarixdən etibarən Müştərinin ticarət hesabı üzrə bütün nəticələrini, açıq mövqelərini və sifarişlərini ləğv edə bilər;

9.41 Müştəri Skalpinq ticarəti etmək istədikdə bu barədə İnvestisiya Şirkətini məlumatlandırmalıdır. İnvestisiya Şirkəti belə ticarəti razılıq olmadan müşahidə etsə, bu növ ticarətə başladığı andan etibarən Müştərinin əldə etdiyi bütün ticarət nəticələrini ləğv edə bilər;

9.42 Fərqli ticarət platformalarının xüsusiyyətlərinə görə, qiymət formalaşması zamanı müəyyən gecikmələr, sistemdə donma halları və İnvestisiya Şirkətinin dərhal müdaxilə imkanı olmayan digər hallarda müəyyən maliyyə alətləri üzrə qlobal bazar qiymətlərindən əhəmiyyətli dərəcədə uzaqlaşma ola bilər. Bu uzaqlaşmalar zamanı müştəri mövqeləri üzrə nəticələrin də daxil olduğu hesab qalıqları bu uzaqlaşmalar müəyyən olunduqdan sonra dondurulur və uzaqlaşmanın yaratdığı nəticələr aradan qaldırıldıqdan sonra dondurulmadan azad olunur. Müştəri bu uzaqlaşamaların müəyyən olunduğu vaxtadək belə uzaqlaşmanın yaratdığı nəticənin də daxil olduğu sərbəst təminat marjası üzrə məxaric etmişdirsə, bu zaman uzaqlaşmanın yaratdığı nəticələr qədər İnvestisiya Şirkəti qarşısında öhdəlik daşıyır;

9.43 Müştərinin eyni maliyyə aləti üzrə əks mövqe ticarət əməliyyatı onu spred genişlənməsi riskindən qorumur və hesabında qalıq vəsaitin dəyişməməsinə təminat vermir. Sərbəst təminat marjası azaldıqda İnvestisiya Şirkəti müştəri mövqelərini bu Standart Şərtlərin 9.33-cü bəndinə uyğun olaraq məcburi bağlayacaqdır;

9.44 Müştəri marja çağırışına əməl etmədikdə İnvestisiya Şirkəti Müştəriyə əlavə çağırış etmir. Hesab üzrə qalıq azaldıqda İnvestisiya Şirkəti müştəri mövqelərini bu Standart Şərtlərin 9.33-cü bəndinə uyğun olaraq məcburi bağlayacaqdır;

9.45 Ticarət platformasında baş verən texniki nasazlıq nəticəsində Müştərinin əldə etdiyi gəlir və ya zərər İnvestisiya Şirkəti tərəfindən Müştəri hesabına əlavə edilə və ya müvafiq olaraq silinə bilər.

9.46 İnvestisiya Şirkəti Müştəriyə marja ticarəti üzrə qiymətli kağızların və baza aktivlərinin hərəkətinə və həmçinin qalıqlara nəzarət etmək imkanı yaradır;

9.47 Fərq müqavilələri ilə marja ticarəti aparan Müştərinin ticarət platforması vasitəsilə real vaxt rejimində ən azı aşağıdakı məlumatlara çıxışı təmin edilir:

*9.47.1. Açılan bütün mövqelərə dair baza aktivinin növü və əməliyyatın istiqaməti;*



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

*9.47.2. Əməliyyatın icra tarixi, vaxtı, qiyməti və lot ölçüsü;*

*9.47.3. Tələb olunan marja miqdarı;*

*9.47.4. Müştəri balansı və kapitalı;*

*9.47.5. Bağlanılan mövqelərə dair xalis mənfəət və zərər miqdarı;*

*9.47.6. Açıq mövqelərə dair potensial mənfəət və zərər miqdarı.*

9.48 İnvestisiya Şirkəti Müştəri ilə müştəri məlumatlarında göstərilən əlaqə vasitələri ilə, eləcə də müştərinin təqdim etdiyi ticarət platforması vasitəsilə ünsiyyət qurur və məlumatları ötürür. Bu halda Müştəri məlumatları əldə etmiş hesab edilir;

9.49 İnvestisiya Şirkəti tərəfindən müştərilərə verilən hesabatlar və məlumatlar bu Standart Şərtlərə uyğun şəkildə kağız daşıyıcıda və ya elektron formada (elektron poçt və ya digər vasitə ilə) təqdim edilir.

9.50 İnvestisiya Şirkətinin tətbiq etdiyi alış və satış qiymətləri arasındakı fərq, əməliyyat mövqeynin növbəti günə keçirilməsi ilə bağlı svop xərci, baza aktivinin dəyişməsi ilə bağlı qiymət fərqinin hesaba tətbiqi və s. bu Standart Şərtlərdə göstərilməyən xərclər, xidmət haqqı deyildir və əməliyyat xərci hesab olunur;

9.51 İnvestisiya Şirkəti müştərinin sifarişləri üzrə xərcləri və xidmət haqlarını sifarişin icra olunması vaxtında və ya daha sonra müştərinin hesabından silir;

9.52 Svop xərci həftə içi İnvestisiya Şirkətinin müəyyən etdiyi günlərdən birində 3 (üç)günlük hesablandıqda, həmin maliyyə aləti üzrə həftə sonu açıq mövqenin saxlanması üçün 1 (bir) günlük hesablanır

9.53 Hər bir maliyyə aləti üzrə svop xərcinin hesablanma günləri ticarət platformasında göstərilir;

9.54 İnvestisiya Şirkəti müştəri ilə arasında olan müqavilə üzrə müştəri öhdəliklərini onun hesabından əlavə sərəncam olmadan silir;

9.55 Fərq müqaviləsi roloveri hər bir maliyyə aləti üzərindən ayrıca, hesablaşma anına açıq mövqelər üzrə hesablanır. Müştərinin hesabına hesablanan fərq müqaviləsi roloveri aşağıdakı düsturla müəyyən olunur:

$$\mathrm{F}MR = -[V * (P_{F0} - P_{F1})] - S_D$$

*FMR = Fərq müqaviləsi roloveri*

*V = Həcm*

$P_{F0}$ *= Baza aktivi olan cari fyuçers müqaviləsinin cari qiyməti*



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

$P_{F1}$ = *Baza aktivi olan növbəti fyuçers müqaviləsinin cari qiyməti*

$S_D$ = *Günlük Svop xərci*

9.56 Müştərinin hesabında açıq mövqe olduqda Müştərinin aktivlərin qaytarılması üzrə tələbini yerinə yetirmək üçün İnvestisiya Şirkəti açıq mövqelərin bağlanmasını tələb edə bilər;

9.57 Müştərinin aktivlərinin geri qaytarılması ilə bağlı tələbini İnvestisiya şirkəti növbəti 5 (beş) iş günü ərzində həyata keçirir;

9.58 Müştərinin məxaric tələbi zamanı Investisiya Şirkəti tərəfindən tətbiq olunan komissiyalar müvafiq qaydada Tariflərə uyğun olaraq əməliyyatın keçirildiyi valyutada, həmin günə AR Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun AZN ekvivalentində hesablanır.

9.59 Müştəri bu Standart şərtlərlə tanış olmaqla və müvafiq Müqaviləni imzalamaqla peşəkar investor statusunun verilməsi barədə yazılı müraciət (ərizə) etmiş hesab edilir. Peşəkar investor statusu əldə etmək üçün qanunvericiliklə müəyyən edilmiş tələbi ödədiyini təsdiq edən sənədləri elektron qaydada İnvestisiya Şirkətinə təqdim etdiyi və İnvestisiya Şirkəti tərəfindən tələb edilən sənədlər məqbul hesab edildiyi gün müştəriyə peşəkar investor statusu verilir. Bu zaman müştəri marja ticarətindən irəli gələn bütün risklər barədə məlumatlı olduğunu bəyan etmiş hesab edilir.

9.60 Müştəri bu Standart şərtlərlə tanış olmaqla və müvafiq müqaviləni imzalamaqla onun tərkib hissəsi olan marja ticarəti üzrə risk məlumatlandırma sənədi ilə tanış olmuş hesab edilir.

## Marja ticarəti üzrə risk məlumatlandırma sənədi

Marja ticarəti nəticəsində mənfəət əldə edə biləcəyiniz kimi zərərə məruz qalmaq riskiniz də mövcuddur. Buna görə, ticarətə başlamazdan əvvəl qarşılaşa biləcəyiniz riskləri tam anlamalı və onları nəzərə alaraq qərar verməyiniz zəruridir. Bu məqsədlə “Marja ticarəti üzrə risk məlumatlandırma sənədi” marja ticarəti ilə məşğul olmaq istəyən bütün şəxslər tərəfindən oxunaraq imzalanmalıdır.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

Azərbaycan Respublikasında marja ticarəti yalnız "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq lisenziyalaşdırılmış investisiya şirkətləri tərəfindən həyata keçirilə bilər. Lisenziyalaşdırılmış investisiya şirkətlərinin siyahısı ilə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsindən (www.cbar.az) tanış ola bilərsiniz.

**MƏLUMATLANDIRMA**

Marja ticarəti üzrə investisiya xidmətinin göstərilməsinə dair investisiya şirkəti ilə bağlanacaq müqavilədən əlavə olaraq aşağıdakı məlumatlarla tanış olmağınız tövsiyə olunur:

1.İnvestisiya şirkəti tərəfindən açılacaq marja hesabları və bu hesablarla aparılan bütün əməliyyatlar "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarına və digər hüquqi aktlara uyğun olaraq tənzimlənir.
2.Marja ticarəti riskli fəaliyyət növüdür. Kredit həddinin təsiri səbəbindən aşağı təminatla aparılan əməliyyatların bazarda Sizin lehinizə olduğu kimi əleyhinizə də ola biləcəyi və buna görə də yüksək kredit həddinin Sizə gəlir gətirə biləcəyi qədər zərərə də məruz qoya biləcəyi nəzərə alınmalıdır. Bazarda olan əks qiymət hərəkətləri nəticəsində investisiya şirkətinə yatırılan pul vəsaitlərinin itirilməsi riski mövcuddur.
3.Marja hesabları ilə əməliyyat apararkən müxtəlif mənbələrdən əldə edilmiş məlumatlar əsasında aparılmış təhlillər heç də həmişə gözlənilən nəticələr verməyə bilər.
4.Alqı-satqı əməliyyatlarında Sizə təqdim edilən qiymətlər və spredlər (baza aktivinin alış qiyməti ilə satış qiyməti arasındakı fərq) ən yaxşı qiymət fərqini əks etdirməyə bilər. Bu məqsədlə onları digər investisiya şirkətlərinin təklif etdiyi qiymətlərlə müqayisə etməyiniz məqsədəuyğundur.
5.Ticarət əməliyyatlarına başlamazdan əvvəl investisiya şirkətindən əməliyyatlarla bağlı tətbiq ediləcək xidmət haqları (komissiya) və fərq müqaviləsi roloveri barədə məlumat tələb edin. Həmin xərclər aydın bildirilmədikdə investisiya şirkətindən dəqiq, birmənalı başa düşülən məlumatı yazılı formada tələb etmək hüququna maliksiniz.


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

6.Marja ticarəti zamanı bazarlarda baş verən ani qiymət dəyişməsi səbəbindən yaranan qiymət sürüşmələri, eləcə də bazar şərtlərindən asılı olaraq, fərq müqavilələri üzrə qiymət boşluqları (bazar şərtlərindən asılı olaraq, qiymətli kağız və ya fərq müqavilələri üzrə növbəti qiymətin bir neçə qiymət addımından sonra formalaşması nəticəsində qiymətlər arasında yaranmış boşluq) və onların doğuracağı risklər barədə ətraflı məlumatlandırmanı investisiya şirkətindən tələb edə bilərsiniz. Bu növ risklər müştərilərin ən çox qarşılaşdığı risklərə aid olub əhəmiyyətli itkilərə gətirib çıxara bilər.

7.Marja çağırışının hansı formada (ticarət platforması, mail və ya telefon vasitəsilə) ediləcəyi barədə məlumat alın. Sizə verilən məlumatların müqavilədə qeyd olunub-olunmadığını dəqiqləşdirin.

Bu sənəd marja ticarəti üzrə əməliyyatlara başlayarkən qarşılaşa biləcəyiniz ümumi risklər barədə Sizi məlumatlandırmaq məqsədi daşıyır. Bu sənəd marja ticarətindən yaranan bütün riskləri əhatə etmir. Bu səbəbdən investisiyanızı bu növ əməliyyatlara yönəltmədən əvvəl bu sahəni ətraflı təhlil etməyiniz və investisiya şirkəti ilə bağlanılacaq müqaviləni diqqətlə oxumağınız tövsiyə edilir.

Müştəri müvafiq müqaviləni imzalamaqla Marja ticarəti üzrə risk məlumatlandırma sənədi ilə tanış olduğunu təsdiq edir.

## 10. Əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi xidməti üzrə standart şərtlər.

10.1 İnvestisiya şirkəti əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi məqsədilə müştəriyə xarici valyuta mübadiləsi xidmətini göstərə bilər. Valyuta mübadilə əməliyyatının aparılması zamanı tətbiq olunan məzənnə investisiya şirkəti tərəfindən müstəqil olaraq təyin edilir.

10.2 Xarici valyuta mübadiləsi xidməti göstərildiyi zaman müştəri investisiya şirkəti tərəfindən təqdim edilən mübadilə məzənnəsi barədə məlumatlandırılır.

10.3 Əməliyyat günü ərzində məzənnələr investisiya şirkətinin qərarı ilə dəyişə bilər.

10.4 Xarici valyuta əməliyyatı investisiya şirkətinin əməliyyat sistemində qeyd edilir və müştəriyə əməliyyat ilə əlaqəli hesabat təqdim edilir. Hesabatda qanunvericiliklə müəyyən edilmiş məlumatlarla yanaşı aşağıdakılar əks olunur:



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

10.4.1 *xarici valyuta mübadiləsi ilə əlaqəli əsas investisiya xidmətinin (əməliyyatının) növü;*

10.4.2 *mübadilə olunan xarici valyutanın adı, məbləği və investisiya şirkətinin həmin günə müəyyən etdiyi məzənnə.*

10.5 Xidmət üzrə xidmət haqqı və əlavə xərclər Müştəri tərəfindən İnvestisiya Şirkətinin ona təqdim etdiyi ödəniş sənədləri (hesab-faktura və s.) əsasında ödəniş sənədlərinin Müştəriyə təqdim edildiyi gündən 5 (beş) iş günü müddətində İnvestisiya Şirkətinin bank hesabına köçürülür və ya İnvestisiya Şirkəti tərəfindən Müştərinin hesabından akseptsiz qaydada silnir. Müştəri bu Standart Şərtləri və müvafiq Müqaviləni imzalamaqla onun tərəfindən İnvestisiya Şirkətinə ödənilməli olan xidmət haqqı onun hesabından (aktivlərindən) akseptsiz qaydada silinməsinə razılıq verir.

10.6 ***İnvestisiya Şirkətinin hüquqları***:

10.6.1 Xidmət üçün nəzərdə tutulmuş xidmət haqqını Müştəridən tələb etmək;

10.6.2 Valyuta mübadilə əməliyyatının aparılması zamanı tətbiq olunacaq məzənnəni müstəqil olaraq təyin etmək;

10.6.3 Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlar.

10.7 ***İnvestisiya Şirkətinin vəzifələri***:

10.7.1 Valyuta mübadilə əməliyyatının aparılması zamanı tətbiq olunacaq məzənnə barədə Müştərini məlumatlandırmaq;

10.7.2 Qanunvericiliklə nəzərdə tutulmuş hesabatları təqdim etmək;

10.7.3 Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

10.8 ***Müştərinin vəzifələri***:

10.8.1 Xidmət üçün nəzərdə tutulmuş xidmət haqqını İnvestisiya Şikətinin bank hesabına vaxtında və tam həcmdə köçürmək;

10.8.2 Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

## 11. Tərəflərin məsuliyyəti

11.1 Tərəflər bu Standart Şərtlərdə, habelə onun çərçivəsində imzalanan müvafiq Müqavilələrdə nəzərdə tutulmuş öhdəliklərin lazımınca yerinə yetirilməməsinə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə məsuliyyət daşıyırlar.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

11.2 İnvestisiya Şirkəti, müvafiq hüquqi aktlara və İnvestisiya Şirkətinin daxili qaydalarına uyğun tərtib olunmamış sənədlərinin icrasına və ya sənədlərdə düzgün göstərilməyən məlumatlara görə məsuliyyət daşımır.
11.3 İnvestisiya Şirkəti, hüquqi aktlarda nəzərdə tutulan hallarda İnvestisiya Hesabına həbs qoyulduğu və ya hesab üzrə əməliyyatların dayandırıldığı hallarda sifarişlərin icrasına görə məsuliyyət daşımır.
11.4 Müştəri tərəfindən İnvestisiya Şirkətinə təqdim edilən məlumatlar (telefon nömrəsi, email adresi və s.) əsasında Müqavilə(lər)in üçüncü şəxs(lər) tərəfindən qanunsuz olaraq bağlanmasına görə İnvestisiya Şirkəti məsuliyyət daşımır.
11.5 Müştəri Azərbaycan Respublikasının hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinin tam və ya qismən yerinə yetirməməsi nəticəsində İnvestisiya Şirkətinə tətbiq edilə biləcək maliyyə sanksiyaları və ya digər şəkildə dəyəcək zərərin, eləcə də bütün növ maliyyə itkilərinin əvəzinin tam ödənilməsinə məsuliyyət daşıyır.
11.6 Müştərinin sifarişi (sifarişləri) nəticəsində Müştəri özünə, İnvestisiya Şirkətinə və digər üçüncü şəxslərə dəymiş zərər, eləcə də bu Standart Şərtlərin tələbləri nəzərə alınmaqla bütün növ maliyyə itkiləri və müvafiq zərərin aradan qaldırılmasına sərf olunmuş xərclər (xidmət haqları, komisyon haqlar və s.) həcmində tam məsuliyyət daşıyır.
11.7 Bu Standart Şərtlərin və müvafiq Müqavilənin şərtlərinin pozulmasında təqsirli olan Tərəf digər Tərəfə vurduğu zərəri və bütün növ maliyyə itkilərini tam həcmdə ödəməlidir.
11.8 Azərbaycan Respublikası və (və ya) digər dövlətlərin səlahiyyətli orqanları, o cümlədən bank sektoru və maliyyə bazarlarında nəzarət və tənzimləyici funksiyaları həyata keçirən qurumlar, eləcə də kart təşkilatları, beynəlxalq təşkilatlar (qurumlar) və ödəniş sistemləri, habelə banklar (xarici banklar daxil olmaqla), o cümlədən də vasitəçi bank, müxbir bank, vəsait göndərənin/qəbul edənin bankı və İnvestisiya Şirkətinin əməkdaşlıq etdiyi digər maliyyə qurumları tərəfindən qəbul edilən qərarlar, tətbiq edilən məhdudiyyətlər nəticəsində Müştəriyə dəymiş (dəyəcək) zərərə və bütün növ maliyyə itkilərinə görə İnvestisiya Şirkəti məsuliyyət daşımır.
11.9 Üçüncü şəxslər, banklar (habelə, xarici banklar), o cümlədən də vasitəçi bank, müxbir bank, vəsait göndərənin/qəbul edənin bankı, kart təşkilatları, ödəniş sistemləri və

İnvestisiya Şirkətinin əməkdaşlıq etdiyi digər maliyyə qurumlarının təqsirinə, ləğvinə, fəaliyyətinin dayandırılmasına, müflis elan edilməsinə və (və ya) onlardan asılı olan digər səbəblərə görə Müştəriyə dəymiş (dəyəcək) zərərə və bütün növ maliyyə itkilərinə görə İnvestisiya Şirkəti məsuliyyət daşımır.

11.10 Vasitəçi bank, müxbir bank, vəsait göndərənin/qəbul edənin bankı, kart təşkilatları, ödəniş sistemləri və İnvestisiya Şirkətinin əməkdaşlıq etdiyi digər maliyyə qurumlarının ləğvi, fəaliyyətinin dayandırılması, fəaliyyətində, tələblərində və göstərdiyi xidmətlərdə dəyişiklik edilməsi, o cümlədən Azərbaycan Respublikası və (və ya) digər dövlətlərin səlahiyyətli orqanları, o cümlədən bank sektoru və maliyyə bazarlarında nəzarət və tənzimləyici funksiyaları həyata keçirən qurumlar tərəfindən qəbul edilən istənilən qərar barədə İnvestisiya Şirkətinin Müştəriyə məlumat təqdim etmək öhdəliyi yoxdur və qeyd edilən səbəblərdən dolayı, eləcə də müvafiq məlumatın təqdim edilməməsi nəticəsində Müştəriyə dəymiş (dəyəcək) zərərə və bütün növ maliyyə itkilərinə görə İnvestisiya Şirkəti məsuliyyət daşımır.

11.11 Bu Standart Şərtlər və müvafiq Müqavilə əsasında əldə olunan investisiya məhsullar/xidmətləri üzrə Müştəri İnvestisiya Şirkətinə məxsus elektron qurğulara, o cümlədən elektron platformalara və digər aktivlərə vurduğu zərərə görə tam həcmdə məsuliyyət daşıyır.

11.12 Müştərinin bu Standart Şərtlər və müvafiq Müqavilə əsasında əldə olunan investisiya məhsullar/xidmətlərindən İnvestisiya Şirkətinə məxsus olan və olmayan ödəmə terminalı və digər elektron qurğuların, o cümlədən elektron platformaların işləməməsi və ya qüsurlu işləməsi səbəbindən istifadə edə bilməməsi nəticəsində Müştəriyə dəymiş (dəyəcək) zərərə və bütün növ maliyyə itkilərinə görə İnvestisiya Şirkəti məsuliyyət daşımır.

## 12. Tətbiq edilən hüquq və mübahisələrin həll edilməsi qaydası

12.1 Bu Standart Şərtlərlə tənzimlənməyən münasibətlər müvafiq Müqavilə, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikası Mərkəzi Bankının qəbul etdiyi normativ xarakterli aktları, İnvestisiya Şirkətinin daxili qaydaları, Azərbaycan Respublikasının digər hüquqi aktları və Beynəlxalq Kart Təşkilatları tərəfindən qəbul edilən qaydalarla tənzimlənir.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

12.2 Bu Standart Şərtlər və ya onunla əlaqədar yaranan bütün mübahisələr, münaqişələr, fikir ayrılıqları və/və ya tələblər Tərəflər arasında danışıqlar yolu ilə həll edilir.

12.3 Bu Standart Şərtlərin 12.2-ci bəndində qeyd olunan yolla nizama salınmayan mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının məhkəmələrində həll edilir.

## 13. Məxfilik

13.1 Tərəflər Standart Şərtlər, müvafiq Müqavilə və onun icrası ilə bağlı bir-birinə təqdim etdikləri məlumatların məxfiliyini qorumalı və qanunvericilikdə nəzərdə tutulmuş hallar (məlumatlar) istisna olmaqla, digər Tərəfin razılığı olmadan həmin məlumatları üçüncü şəxslərə açıqlamamalıdırlar.

## 14. Fors-Major hallar

14.1 Tərəflər bu Standart Şərtlər və müvafiq Müqavilə ilə üzərlərinə götürdükləri öhdəliklərin tam və ya qismən icra edilməməsinə görə məsuliyyətdən o vaxt azad olunurlar ki, bu icra etməmə müvafiq Müqavilənin bağlanmasından sonra yaranmış, Tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə və təsirinə mane ola bilmədikləri qarşısıalınmaz qüvvənin təsirindən əmələ gəlmiş olsun.

14.2 Bu cür hallara daşqın, zəlzələ, yanğın, yer sürüşməsi və digər təbii fəlakətlər, müharibə və hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, epidemiya, epizootiya, moratorium, Tərəflər arasındakı mövcud münasibətləri bilavasitə dəyişdirən qanunvericilikdə dəyişikliklər, dövlət və yerli özünüidarəetmə orqanlarının bu Standart Şərtlərin və müvafiq Müqavilənin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qəbul etdikləri aktları aiddir.

14.3 Fors-major halların təsirinə məruz qalan Tərəf digər Tərəfi belə halların baş verdiyi gündən 5 (beş) iş günündən gec olmayaraq yazılı surətdə xəbərdar etməlidir. Fors-major hallarında digər tərəfi vaxtında yazılı şəkildə xəbərdar etməyən Tərəf Müqavilə üzrə öhdəliklərini icra edə bilmədikdə fors-major hallara istinad etmək hüququnu itirir. Fors-major halların mövcudluğu və təsir müddəti səlahiyyətli dövlət orqanları və ya digər səlahiyyətli təşkilatlar tərəfindən verilən sənədlərlə təsdiq olunmalıdır.


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

## 15. Antikorrupsiya

15.1 Tərəflər öz fəaliyyətində korrupsiyaya qarşı mübarizəyə dair yerli qanunvericiliyin və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərini rəhbər tutur və həmin tələblərə riayət edilməməsinə görə məsuliyyət daşıyır.

## 16. Müştərinin əlavə təsdiq və razılıqları

16.1 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, bu Standart Şərtlər və onun çərçivəsində imzalanan müvafiq Müqavilənin icrası və digər bütün investisiya xidmətləri üzrə əməliyyatlarının həyata keçirilməsi məqsədi ilə “E-sosial” və “ASAN Finans” elektron portalları, habelə digər dövlət və qeyri-dövlət informasiya ehtiyatları vasitəsilə şəxsiyyətini təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi, müvəqqəti yaşayış icazəsi və ya şəxsiyyəti təsdiq edən digər sənəd) üzrə müəyyən olunan məlumatların (sənədin FİN-i, seriya və nömrəsi, ad, soyad, ata adı, qeydiyyat ünvanı, sənədi verən orqanın adı, sənədin verilmə və bitmə tarixi, cins, doğum tarixi, doğum yeri, ailə vəziyyəti, vətəndaşlığı), iş yeri üzrə müəyyən olunan məlumatların (o cümlədən iş yeri, vəzifə, əmək müqaviləsinin tipi (müddətli və ya müddətsiz), əmək müqaviləsinin bağlanma və bitmə tarixi, iş yerinin növü (əsas və ya əvəzçilik üzrə), əmək haqqının məbləği), habelə pensiya, müavinət, təqaüd və kompensasiya ilə bağlı məlumatların (pensiyanın, sosial müavinətin, təqaüdün, digər sosial ödənişlərin (kompensasiya, ünvanlı sosial yardım) növü, məbləği, başlanma və bitmə tarixləri, əlilliyə görə pensiya, sosial müavinət və ya təqaüd alan şəxsin əlilliyinin səbəbi (diaqnozları), müddəti), lakin, bununla məhdudlaşmayaraq müvafiq bank məhsulunun/xidmətinin əldə edilməsi üçün tələb olunan bütün digər məlumatların (telefon nömrəsi və elektron ünvanı, yaşadığı və olduğu yer, ixtisası, şəkli və s.) İnvestisiya Şirkətinə təqdim olunmasına razılıq verir.

16.2 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, İnvestisiya Şirkətinin digər maliyyə təşkilatlarından Müştəriyə məxsus əmlak/vəsait barədə məlumatları əldə etməsinə razılıq verir.

16.3 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, bu Standart Şərtlər və onun çərçivəsində imzalanan müvafiq Müqavilələr üzrə Müştəri tərəfindən İnvestisiya Şirkətinə təqdim edilən və ya İnvestisiya Şirkəti tərəfindən müxtəlif informasiya ehtiyatlarından əldə edilən bütün məlumatların İnvestisiya Şirkəti tərəfindən analitika, monitorinq, marketinq,

Müştəriyə göstərilən investisiya xidmətləri və qanunvericilikdə qadağan olunmamış digər məqsədlər üçün təhlil və emal edilməsinə, ümumiləşdirilməsinə, özünün əsas müəssisələrinə və digər partnyorlarına (müqavilə bağladığı şəxslərə) təqdim edilməsinə, transsərhəd qaydada ötürülməsinə, işlənməsinə, eləcə də qanunvericiliklə qadağan edilməyən digər məqsədlər üçün istifadəsinə razılıq verir. Bu zaman, müvafiq məlumatların əldə edilməsinə, təqdim edilməsinə və ötürülməsinə görə Müştərinin əlavə razılığı tələb olunmur. Müvafiq Müqavilə əsasında əldə edilmiş məlumatların saxlanma müddəti müvafiq xidmətdən istifadə müddəti ilə eynidir və həmin xidmətə xitam verildikdən sonra, eləcə də Müştərinin ölümü halında məlumatlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada saxlanılır/arxivləşdirilir. Standart Şərtlərin bu bəndi üzrə qeyd olunmuş Müştəri tərəfindən verilən razılığın müddəti Müvafiq müqavilənin imzalanma tarixindən 10 (on) il təşkil edir. Müştəri müvafiq Müqaviləyə xitam verildikdən sonra İnvestisiya Şirkətinə müraciət edərək qarşılıqlı razılıq əsasında bu bənddə göstərilən müddətdən daha tez vaxtda razılığı geri götürə bilər.

16.4 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, müxtəlif məhsullara dair kampaniya və reklam xarakterli məlumatların (SMS, bildiriş, e-mail, mobil tətbiq və s. elektron formada) İnvestisiya Şirkəti tərəfindən Müştəriyə göndərilməsinə razılıq verir.

16.5 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, öhdəliklərin ödənilməsini təmin etmək üçün müvafiq məbləğdə pul vəsaitlərinin özünün İnvestisiya Şirkətindəki İnvestisiya hesabından, habelə ona çatacaq bütün vəsaitlərdən ödəniş müddətinin çatmasına 5 (beş) iş günü qalmış (Bu Standart şərtlər üzrə təqdim edilən xidmətlərə münasibətdə daha qısa müddət nəzərdə tutulduğu hallarda həmin müddətlər nəzərə alınır) akseptsiz qaydada silmək və/və ya həmin öhdəliklərin icrasını təmin etmək üçün vəsaitləri bloklaşdırmaq hüququnu İnvestisiya Şirkətinə verir. Müştərinin bu bənddə nəzərdə tutulmuş razılığı Müştəri tərəfindən təqdim edilmiş Sifariş hesab edilir və İnvestisiya Şirkəti tərəfindən icra olunur.

16.6 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, həmin müvafiq Müqavilə əsasında İnvestisiya Şirkətinin investisiya xidmətlərindən istifadə etdiyi zaman Standart Şərtlərin müvafiq müddəalarını qəbul etmiş sayılır.

16.7 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, İnvestisiya hesabı üzrə bütün əməliyyatların aparılması ilə bağlı müvafiq kart təşkilatlarını, ödəniş sistemlərini,


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

bankları (o cümlədən, müxbir bankları) və İnvestisiya Şirkətinin əməkdaşlıq edəcəyi digər maliyyə qurumlarını seçməyi İnvestisiya Şirkətinə həvalə etdiyinə və bunun nəticəsində dəymiş (dəyə biləcək) zərərə, eləcə də və bütün növ maliyyə itkilərinə görə bütün riskləri və məsuliyyəti öz üzərinə götürdüyünə razılıq verir.

16.8 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, bu Standart Şərtlər əsasında istifadə etdiyi investisiya xidmətləri məhsulları üzrə İnvestisiya Şirkətinin qarşısında yaranan öhdəliklərinə münasibətdə İnvestisiya Şirkəti tərəfindən tələbin üçüncü şəxslərə güzəşt edilməsinə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 356-cı maddəsinin tələbləri nəzərə alınmaqla qabaqcadan razılıq verir və bu razılığı heç bir halda ləğv etməyəcəyini bəyan edir.

16.9 Müştəri müvafiq Müqaviləni imzalamaqla təsdiq edir ki, verilməsi qanunvericilklə və normativ xarakterli aktlarla tələb edilən digər şəxslərin məlumatlarını İnvestisiya Şirkətinə təqdim edən zaman Müştəri həmin şəxslərin razılığını almışdır, eləcə də bu razılığın alınmamasına görə İnvestisiya Şirkəti Müştəri və həmin şəxslər qarşısında hər hansı məsuliyyət daşımır.

## 17. Ödənişlər

17.1 Tərəflər arasındakı hesablaşmalar İnvestisiya Şirkəti tərəfindən Müştəriyə təqdim olunan hesab-fakturalar əsasında aparılır və ya Müştərinin hesabından akseptsiz silinir. Müştəri düzgün şəkildə tərtib edilmiş hesab-fakturaya uyğun olaraq onu aldığı tarixdən 5 (beş) iş günü ərzində hesab-fakturada qeyd edilən məbləği İnvestisiya Şirkətinin hesabına köçürməlidir.

17.2 ABB-Mobile mobil tətbiqi vasitəsilə göstərilən xidmətlər üzrə müştəri tərəfindən aparılan hər bir investisiya əməliyyatına uyğun olaraq həmin əməliyyat üçün müəyyən edilmiş xidmət haqqı və xərclər əməliyyatın aparıldığı anda İnvestisiya Şirkəti tərəfindən Müştərinin vəsaitlərindən tutulur.

17.3 Müştəri müvafiq müqaviləni imzalamaqla qəbul edir ki, bu Standart şərtlərin 17.1-ci bəndində nəzərdə tutulan öhdəliyini vaxtında icra etmədikdə, İnvestisiya Şirkətinə ödənilməli olan məbləğ İnvestisiya Şirkəti tərəfindən Müştəriyə məxsus hesabdan akseptsiz qaydada silinəcək.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

17.4 Bu bənddə qeyd edilən ödənişlərə xidmət haqları və sifarişin icra olunması ilə bağlı xərclər, həmçinin xidmətlərin göstərilməsi üzrə xüsusi olaraq investisiya xidmətinə münasibətdə tətbiq edilən digər xidmət haqları daxildir.

## 18. İnvestisiya Şirkəti tərəfindən Müştəriyə hesabatların təqdim edilməsi qaydası

18.1 Bu Standart Şərtlər üzrə göstərilən xidmətlər üzrə hesabatlar bu Standart Şərtlərin müvafiq müddəalarında göstərilən qaydada təqdim edilir.
18.2 Bu Standart Şərtlərlə tənzimlənməyən və İnvestisiya Şirkəti tərəfindən müştəriyə təqdim edilməsi Qanunvericiliklə müəyyən edilmiş hesabatlar İnvestisiya Şirkəti tərəfindən qüvvədə olan qanunvericiliyə uyğun olaraq Müştəriyə təqdim edilir.
18.3 Hesabatlar elektron formada və ya kağız daşıyıcıda təqdim edilə bilər. Hesabatların elektron poçt vasitəsilə təqdim edilməsi də hesabatın elektron formada təqdim edilməsi hesab edilir. Hesabatlar İnvestisiya Şirkəti tərəfindən digər elektron formada da təqdim edilə bilər.

## 19. Digər şərtlər

19.1 **İnvestisiya hesabı üzrə üzrə:**
19.2 İnvestisiya hesabının açılmasına və investisiya xidmətlərinin göstərilməsinə dair müvafiq Müqavilə imzalandığı tarixdən qüvvəyə minir və 25 il müddətinə və ya Tərəflərin müvafiq Müqavilə, o cümlədən bu Standart Şərtlər üzrə bütün öhdəliklərini tam icra edənədək qüvvədə qalır və müqavilənin qüvvədə qalma müddətinin bitməsinə ən az 30 gün qalmış tərəflərdən heç biri müqavilənin xitamı ilə bağlı digər tərəfə yazılı bildiriş təqdim etməzsə eyni şərtlərlə yenidən uzadılır.
19.3 Müvafiq Müqavilə Müştərinin və ya səlahiyyətli nümayəndəsinin ərizəsi üzrə bu Standart Şərtlərin 4.4.3-cü yarımbəndinin tələbləri nəzərə alınmaqla istənilən vaxt ləğv edilir.
19.4 İnvestisiya Şirkəti aşağıdakı hallarda müvafiq Müqaviləni ləğv edə və investisiya hesabını bağlaya bilər:


ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

19.4.1 Müştəri İnvestisiya Hesabı üzrə azı 3 (üç) ay ərzində əməliyyat aparmadığı təqdirdə;

19.4.2 Müştərini 30 (otuz) təqvim günü əvvəlcədən xəbərdar etməklə İnvestisiya Şirkəti tərəfindən müəyyən edilən daxili nəzarət qaydalarına müvafiq olaraq;

19.4.3 Müştəri tərəfindən hesabdan cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və fırıldaqçılıq (fraud) əməliyyatlarının aparılması və s. qeyri-qanuni bu kimi məqsədlər üçün istifadə edilməsi müəyyən edildikdə və ya bununla bağlı şübhələr olduqda və ya belə şübhə üçün kifayət qədər əsaslar yarandıqda;

19.4.4 Standart Şərtlərdə, müvafiq Müqavilədə və qanunvericilikdə qeyd edilən sənədlər və/və ya məlumatlar Müştəri tərəfindən təqdim edilmədikdə;

19.4.5 Müştərinin ölümü barədə İnvestisiya Şirkətinə rəsmi yazılı məlumat daxil olduqda;

19.4.6 Müştərinin müştəri uyğunluğu tədbirləri ilə bağlı tələbləri yerinə yetirmək mümkün olmadığı və/və ya Müştəri ilə bağlı əvvəllər təqdim edilmiş müştəri uyğunluğu tədbirləri doğru olmadığına dair şübhələr olduğu və/və ya Müştərinin işgüzar münasibətlərinin mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün olmadığı hallarda;

19.4.7 Bu Standart Şərtlər və onun çərçivəsində imzalanan müvafiq Müqavilə üzrə öhdəliklərin icrası Müştəri tərəfindən pozulduqda;

19.4.8 Qanunvericilikdən irəli gələn digər hallarda.

19.5 Müvafiq Müqavilənin ləğv edilməsi Müştərinin investisiya hesabının bağlanması üçün əsasdır.

19.6 Müvafiq Müqavilə ləğv edildikdə İnvestisiya Şirkəti İnvestisiya hesabındakı pul vəsaitinin, qiymətli kağızların, törəmə maliyyə alətlərinin və digər aktivlərin qalığını Müştəriyə qaytarır (Qanunvericiliklə Müştəri vəsaitlərinin qaytarılmasının qadağan edildiyi hallar istisna olmaqla) və ya Müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci 5 (beş) iş günü keçənədək Müştərinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq lisenziyalaşdırılmış maliyyə institutundakı hesabına köçürür. İnvestisiya hesabının qalığı Müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olan yeni investisiya hesabı İnvestisiya Şirkətinə bildirilmədikdə, İnvestisiya Şirkətinin mülahizəsinə uyğun olaraq həmin vəsait müvafiq müştəri kateqoriyasının bağlanmış hesablarının uçotu aparılan hesaba köçürülür və Müştəriyə bu barədə



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

məlumat verilir və ya Müştəri aktivləri (pul vəsaiti olmayan) bazarda satılaraq əldə edilən pul vəsaitləri Müştərinin məxaric hesabına köçürülür. Müştəri müvafiq müqaviləni imzalamaqla, müqavilənin ləğvi halında pul vəsaiti olmayan aktivlərinin bazarda satılması barədə sifariş vermiş hesab edilir. İnvestisiya Şirkəti bu sifarişi ən yaxşı qiymət prinsipi ilə icra edir. Hər bir xidmət növü üzrə bu şərtin xüsusi qaydası (şərti) müəyyən edilə bilər. Bu zaman xüsusi şərt əsas götürüləcəkdir.

19.7 Müştəri aktivləri (pul vəsaitləri) bu Standart Şərtlərin tələbləri nəzərə alınmaqla və bu Standart Şərtlər üzrə təqdim edilən xidmətlər üzrə ayrı qayda nəzərdə tutulmayıbsa Müştərinin yazılı və ya elektron qaydada müraciəti əsasında, müraciətin alındığı tarixdən 5 (beş) iş günü ərzində Müştərinin məxaric hesabına köçürülür. Pul vəsaitlərinin köçürülməsi aşağıdakı qaydada həyata keçirilir:

*19.7.1. Müştəri ilə müqavilə bağlanılan zaman müştəri tərəfindən təqdim edilən və/və ya müqavilədə qeyd edilmiş, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq bank fəaliyyəti üzrə müvafiq lisenziyaya malik hüquqi şəxs tərəfindən müştərinin adına açılmış bank hesabına.*

*19.7.2. Müştəri ilə bağlanılmış müqavilədə qeyd edilmiş və/və ya müştəri tərəfindən təqdim edilmiş bank hesabı ilə əlaqədar çətinlik olduqda müştəri tərəfindən edilən yeni müraciət və müraciətlə birlikdə təsdiqedici sənədlər əsasında müştəri tərəfindən təqdim edilmiş, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq bank fəaliyyəti üzrə müvafiq lisenziyaya malik hüquqi şəxs tərəfindən müştərinin adına açılmış yeni bank hesabına.*

19.8 Pul vəsaiti olmayan digər Müştəri aktivləri Müştərinin yazılı və ya elektron qaydada müraciəti əsasında, müraciətin alındığı tarixdən 5 (beş) iş günü ərzində Müştərinin müraciətdə qeyd etdiyi ona məxsus digər hesablarına köçürülür. Pul vəsaiti olmayan müştəri aktivlərinin köçürülməsi aşağıdakı qaydada həyata keçirilir:

*19.8.1. İnvestisiya Şirkətinin Komplayens əməkdaşı (məsul şəxsi) tərəfindən razılıq verilməsi ilə yalnız Müştərinin öz adına olan və Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən investisiya xidmətlərinin göstərilməsi üçün müvafiq lisenziya verilmiş investisiya şirkəti tərəfindən açılmış depo hesabına (investisiya hesabına).*

*19.8.2. İnvestisiya Şirkətinin Komplayens əməkdaşı (məsul şəxsi) tərəfindən razılıq verilməsi ilə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən investisiya xidmətlərinin*

*göstərilməsi üçün müvafiq lisenziya verilmiş İnvestisiya Şirkətinə məxsus müştəri aktivlərinin saxlanıldığı depo hesabına (investisiya hesabına).*

*19.8.3. Müştəriyə məxsus olmayan (İnvestisiya Şirkətinin adına saxlanıldığı hallar istisna olmaqla) hesaba qiymətli kağızların köçürülməsi həyata keçirilmir.*

*19.8.4. Müraciət tarixinə Müştərinin onun aktivlərinin köçürülməsi üçün digər hesabı olmadığı təqdirdə həmin aktivlər bazar qiymətinə satılaraq əldə edilən pul vəsaitləri bu Standart Şərtlərin 19.7.1-ci və 19.7.2-ci yarımbəndinin tələbləri nəzərə alınmaqla Müştərinin məxaric hesabına köçürülür. Müştərinin qeyd edilən müraciəti sifariş hesab edilir.*

19.9 İnvestisiya hesabının açılmasına və investisiya xidmətlərinin göstərilməsinə dair müvafiq Müqaviləyə Tərəflərin qarşılıqlı razılığı əsasında və qanunvericilikdə, Standart Şərtlərdə və/və ya müvafiq Müqavilədə nəzərdə tutulmuş hallarda və qaydada Tərəflərin biri tərəfindən birtərəfli qaydada vaxtından əvvəl xitam verilə bilər.

19.10 İnvestisiya Şirkəti tərəfindən İnvestisiya hesabının açılmasına və investisiya xidmətlərinin göstərilməsinə dair müvafiq Müqaviləyə, həmçinin, aşağıdakı hallarda birtərəfli qaydada ləğv edilə bilər:

19.10.1 Müştəri tərəfindən hesabdan cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər bu kimi məqsədlər üçün istifadə edilməsi müəyyən edildikdə, bununla bağlı şübhələr olduqda və ya belə şübhə üçün kifayət qədər əsaslar yarandıqda;

19.10.2 Standart Şərtlərdə, müvafiq Müqavilədə və qanunvericilikdə qeyd edilən sənədlər və/və ya məlumatlar Müştəri tərəfindən təqdim edilmədikdə;

19.11 Müvafiq Müqavilə Standart Şərtlərin 19.4.3-cü, 19.4.4-cü, 19.10.1-ci və 19.10.2-ci yarımbəndlərinə əsasən ləğv edildiyi hallarda, Müştərinin İnvestisiya hesabı üzrə əməliyyatları, o cümlədən, Müştəri sifarişlərinin yerinə yetirilməsi İnvestisiya Şirkəti tərəfindən birtərəfli qaydada dayandırılır, icrada olan sifarişlər ləğv edilir və Müştəridən İnvestisiya Şirkəti qarşısındakı öhdəliklərinin ödənilməsi tələb edilir. Qanunvericiliklə və daxili qaydalarla tələb olunduğu hallarda bu barədə müvafiq orqanlara məlumat verilir.

19.12 Bu Standart Şərtlərin 8-ci bəndinin tələbləri nəzərə alınmaqla bu Standart Şərtlərdə qeyd edilən xidmətlərin göstərilməsi ilə bağlı müştəri ilə ünsiyyətdə olan investisiya şirkətinin əməkdaşlarının bazar haqqında verdiyi məlumatlar, qiymət



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

gözləntiləri, volatillik ehtimalları və digər məlumatlar heç bir halda investisiya məsləhəti sayılmır, gələcək ilə bağlı mütləq gəlir və ya zərərə qarşı təminat barədə vədlər kimi anlaşılmamalıdır.

19.13 Bu standart şərtlər üzrə xarici bazar əməliyyatları (xidmətlərin göstərilməsi xarici bazarda həyata keçirilməsi) zamanı və ya xidmətin icrası üzrə müqavilə tərəfi xarici şəxs (məsələn kontragent) olduğu zaman xidmət haqları xidmətin götərildixidmətin götərildiyi yer üzrə və ya əldə edilməsi nəzərdə tutulan aktivin valyutası üzrə ilə tutula bilər.

## 20. Yekun müddəalar

20.1 Bu Standart Şərtlər İnvestisiya Şirkəti tərəfindən təsdiq edilmiş və İnvestisiya Şirkətinin müvafiq internet səhifəsində (https://www.abbinvest.az/az/melumatlarin-aciqlanmasi) yerləşdirilmişdir.

20.2 Bu Standart Şərtlərdə nəzərdə tutulmayan investisiya xidmətləri İnvestisiya Şirkəti tərəfindən Müştəriyə göstərilə bilər və Standart Şərtlərin müddəaları həmin xidmətlərdən yaranan münasibətlərə şamil edilmir.

20.3 Bu Standart Şərtlər çərçivəsində imzalanan müvafiq Müqavilələrin müddəaları ilə Standart Şərtlər arasında uyğunsuzluq yarandıqda müvafiq Müqavilələrin şərtləri əsas götürülür.

20.4 Bu Standart Şərtlər çərçivəsində təqdim olunan xidmətlər üzrə müvafiq Müqavilə imzalanan tarixədək həmin xidmətlər üzrə Tərəflər arasında daha əvvəl imzalanmış müqavilələr mövcud olduğu halda həmin müqavilələrin bu Standart Şərtlərlə ziddiyyət təşkil edən müddəaları qüvvədən düşür və həmin münasibətlərə, habelə Satndart Şərtlərdə əks olunan lakin, sözügedən müqavilələrdə tənzimlənməyən məsələlərə bu Standart Şərtlərin müddəaları tətbiq edilir.

20.5 Bu Standart Şərtlərin və müvafiq Müqavilənin hər hansı müddəasının etibarsızlığı onun digər müddəalarının və bütövlükdə Standart Şərtlərin və müvafiq Müqavilənin etibarsızlığına səbəb olmur.

20.6 Bu Standart Şərtlərə və müvafiq Müqaviləyə dair bütün əlavə və dəyişikliklər bu Standart Şərtlərdə nəzərdə tutulan formada tərtib edilir, imzalanır və müvafiq Müqavilənin, habelə Standart Şərtlərin tərkib hissəsini təşkil edir.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az

20.7 Tərəflər təsdiq edir ki, Müştərinin İnvestisiya Şirkətinə təqdim etdiyi əlaqə vasitələrinə sonuncu tərəfindən özünün təqdim etdiyi müxtəlif məhsul və xidmətlər, habelə kampaniyalar haqqında məlumatlar göndərilə bilər.

20.8 Bu Standart Şərtlər və müvafiq Müqavilə üzrə bütün yazışmalar poçt göndərişləri, kuryer xidmətləri, faks, sms, elektron poçt vasitəsilə həyata keçirilə bilər.

20.9 Müştərinin əlaqə vasitələri (ünvanı, telefon nömrəsi və s ) və bank rekvizitləri dəyişdikdə, o, müvafiq dəyişikliyin baş verdiyi tarixdən 5 (beş) iş günü müddətində İnvestisiya Şirkətinə əlaqə kanalları vasitəsilə xəbərdar etməlidir. Belə xəbərdarlığın edilmədiyi təqdirdə Müştəriyə göndərilən istənilən göndəriş (sms, bildiriş, tələb, pretenziya və s.) onun müvafiq Müqavilənin şərtlərinə uyğun olaraq son məlum olan ünvanına/telefon nömrəsinə göndərilir və Müştəri həmin ünvanda yaşamasa/telefon nömrəsinə sahib olmasa da, lazımı qaydada çatdırılmış hesab olunur. Bu halda müvafiq investisiya xidmətlərinin həyata keçirilməsi üçün həmin nömrə vasitəsilə birdəfəlik təsdiqetmə kodundan (OTP) istifadə edilərək edilən təsdiqlər Müştəri tərəfindən edilmiş hesab edilir və buna görə məsuliyyəti Müştəri daşıyır.

20.10 Müvafiq Müqavilənin qüvvədə olma müddətinin qurtarması Tərəfləri həmin müddət qurtarana qədər yol verilmiş pozuntulara görə məsuliyyətdən azad etmir.

20.11 İnvestisiya Şirkəti tərəfindən, Müştəridən daxil olan müraciətlərə baxılması qaydası “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununa və İnvestisiya Şirkətinin daxili qaydalarına əsasən həyata keçirilir.

20.12 Müştəri tərəfindən müraciət, təklif və şikayətlərin İnvestisiya Şirkətinin, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq struktur bölməsinə (İdarəsinə) təqdim edilməsi aşağıdakı əlaqə vasitələri ilə həyata keçirilə bilər:

**İnvestisiya Şirkəti üzrə:**

- Qaynar xətt: +99450 268 33 66
- Elektron poçt: office@abbinvest.az
- Müştəri şikayətləri üzrə kordinator: Sərvinaz Hacızadə

**Azərbaycan Respublikasının Mərkəzi Bankı üzrə:**

- Qaynar xətt: +99412 966;
- Telefon nömrəsi: +99412 4935058.

**Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi üzrə:**

- Qaynar xətt: 2244;
- WhatsApp xətti: +99460 400 22 44.



ABB-İnvest İnvestisiya Şirkəti QSC
office@abbinvest.az I +994 493 00 91
Cəfər Cabbarlı, 609 (Globus Center, 8-ci mərtəbə), Bakı şəhəri, AZ1065
www.abbinvest.az